www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 oktyabr 2015-ci il Cümə axşamı № 216 (6244) Qiymәti 40 qәpik

**Xəbər**

## "Sədərək" çökür; sahibkarlar mağazaları qapadırlar

yazısı səh.15-də

**Gündəm**

### ABŞ və Rusiya arasında "Suriya-Çin səddi"



Qərb mətbuatı Obama və Putinin anlaşa bilməməsinin səbəbləri haqda yazdı; "Moskva və Vaşinqton arasında yeni rəqabət erası başlayıb"; "Bu günün qalibi Putindir, lakin..."

yazısı səh.7-də

### Cəbhəçilər nə üçün bir-birilərini döyürlər...

yazısı səh.3-də

### Jurnalist Sevinc Telmanqızının kitabı gömrükdən buraxılmır

yazısı səh.4-də

### Arzu Səmədbəyli DSK və MSK-dan məhkəməyə şikayət etdi

yazısı səh.5-də

*İsa Qəmbər:*

### "Qarabağ məsələsinin hərbi yolla həlli indiki mərhələdə real görünmür"

yazısı səh.9-da

### Partiya liderlərinin YAP-dan olan rəqibləri...

yazısı səh.6-da

### Spikerdən deputata ilginc reaksiya

yazısı səh.11-də

### Ölkənin bank sisteminə təhlükə - filiallar bağlanır...

yazısı səh.10-da

### Xətaidə hasara alınan yaşıllığa Ekologiya Nazirliyindən sərt reaksiya

yazısı səh.12-də

### İqtisadçıların neft davası: Azərbaycan qazanır, ya itirir?

yazısı səh.10-da

### “”Evrascon” ASC-nin Abid Şərifova aidiyyəti yoxdur" - qarşı tərəf

yazısı səh.12-də

### Hacıqabuldakı bir qətlin müəmmalı istintaqı

yazısı səh.14-də

## Məmmədyarovu əvəzləyəcək kadr tapıldı

# "DİŞSİZ DİPLOMAT" GEDİR: YENİ NAZİR ARAZ ƏZİMOV OLA BİLƏR

Mötəbər mənbələrdən əldə etdiyimiz bilgiyə görə, XİN rəhbəri ilə bağlı qəti qərar artıq verilib; iqtidar "hücum diplomatiyası"nı işə salır; nazir postuna ən real namizəd Qarabağ danışıqlarında prinsipial mövqeyi ilə tanınır...




yazısı səh.8-də

# Ziya Məmmədov italyan podratçını necə müflis edib...

Nəqliyyat nazirinin əcnəbi iş adamına qarşı davranışları xarici investorları Azərbaycana gəlməkdən yayındıra bilər; **Marko Di Giokomo:** "Heç bir günahım olmadan şantaja boyun əyməli oldum"

yazısı səh.6-da



*Metyu Brayza:*

### "Qarabağ məsələsində Qərb Rusiyaya təzyiq etməlidir"

yazısı səh.13-də



*Pənah Hüseyn:*

### "İmza vərəqələrinin dairədən çıxarılması nonsensdir"

yazısı səh.4-də



*Sahib Kərimli:*

### "Oyun oynamağım barədə iddialar doğru deyil"

yazısı səh.5-də



## İlham Əliyev: "Azərbaycan-Rusiya əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə çatıb"

**Prezidenti İlham Əliyev VI Rusiya-Azərbaycan Regionlararası Forumunun iştirakçılarına müraciət ünvanlayıb. APA-nın məlumatına görə, dövlət başçısının müraciətində deyilir:**

"Hörmətli forum iştirakçıları! VI Rusiya-Azərbaycan Regionlararası Forumunun işə başlaması münasibətilə sizi səmimi qəlbdən təbrik edirəm. Əlamətdar haldır ki, bu il həmin forum Yekaterinburqda - ölkəmizlə ənənəvi sıx ticari-iqtisadi və humanitar əlaqələri olan Sverdlovsk vilayətinin inzibati mərkəzində keçirilir. Bu əlaqələrin qorunub saxlanmasında və möhkəmlənməsində regionun ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edən çoxsaylı Azərbaycan diasporunun nümayəndələri mühüm rol oynayır.

Fərəhli haldır ki, regionlararası forumlar nisbətən qısa zaman kəsiyində özünün həyat qabiliyyətini və səmərəliliyini sübut edib. Bu forumlar haqlı olaraq tələbat duyulan elə məkan hesab edilir ki, orada mövqelər əlaqələndirilir, birgə fəaliyyət üçün səylər cəmləşir, işgüzar əlaqələr tənzimlənir və onların genişləndirilməsi perspektivləri müzakirə edilir. Başqa sözlə desək, bu görüşlərdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının subyektləri arasında birbaşa qarşılıqlı faydalı əlaqələr yaratmağa imkan verən konstruktiv və açıq dialoq aparılır.

Forumun formatı ticari-iqtisadi və investisiya tərəfdaşlığından başlamış humanitar sahədə qarşılıqlı fəaliyyətlə bağlı məsələlərin geniş dairəsini nəzərdən keçirməyə imkan verir. Təqdirəlayiq fakt ondan ibarətdir ki, budəfəki tədbir çərçivəsində hər iki tərəfdən olan tələbələrin, gənc alimlərin və sahibkarların iştirakı ilə ayrıca "dəyirmi masa" təşkil edilib. Bu cür dialoq platforması həm əməkdaşlığın daha səmərəli formalarını və istiqamətlərini axtarmağa kömək edir, həm də gənclər arasında yeni dostlar və həmfikirlər qazanmağa şərait yaradır. Sirr deyil ki, dövlətlərimiz arasında qarşılıqlı münasibətlərin inkişaf perspektivləri məhz yüksək intellektə və kommunikabelliyə malik olan bugünkü gənc nəsildən asılıdır.

Azərbaycan-Rusiya əlaqələrinin müasir vəziyyətini qiymətləndirərək məmnunluqla qeyd etmək olar ki, birgə səylərimiz sayəsində bu əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə çatıb. Əminəm ki, sizin nüfuzlu forumunuz inteqrasiya proseslərinin dərinləşməsinə və iki ölkənin daha da yaxınlaşmasına yeni təkan verəcək".


"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;


# Ziya Yusifzadə vəfat etdi





**Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasının rəisi, general-leytenant Ziya Yusifzadə 86 yaşında dünyasını dəyişib.**

Sentyabrın 30-da II Fəxri Xiyabanda baş tutan dəfn mərasimində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov, Prezident Administrasiyası rəhbərinin müavini, hərbi məsələlər üzrə müşavir Vahid Əliyev, baş nazirin müavini Abid Şərifov, daxili işlər naziri Ramil Usubov və müavinləri, baş prokuror Zakir Qaralov, Məhkəmə-Hüquq Şurasının sədri, ədliyyə naziri Fikrət Məmmədov, Ali Məhkəmənin sədri Ramiz Rzayev, Səbayelin icra başçısı Eldar Əzizov, insan hüquqları üzrə müvəkkil Elmira Süleymanova, Dövlət Sərhəd Xidmətinin, habelə Silahlı Qüvvələrin generelləri və digər dövlət rəsmiləri iştirak ediblər. Dəfndə Azərbaycanın vəzifəli məmurlarının ağladıqları müşahidə olunub.

Ziya Yusifzadə 1929-cu il fevralın 15-də Şəkidə ziyalı ailəsində anadan olub. 1945-ci ildə Zaqatalada orta məktəbi qızıl medalla qurtarıb. 1952-ci ildə Moskva Dövlət Pedaqoji Xarici Dillər İnstitutunu ingilis dili ixtisası üzrə bitirib.

1952-1956-cı illərdə Azərbaycan SSR Maarif Nazirliyində və Azərbaycan SSR Nazirlər Sovetində məsul vəzifələrdə işləyib.

1956-cı ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinə həqiqi hərbi xidmətə qəbul olub. 1972-1976-cı illərdə DTK-nın əks-kəşfiyyat şöbəsinin rəisi, 1976-cı ildən DTK sədrinin I müavini vəzifəsində çalışıb.

1980-ci ildən 1988-ci ilə qədər isə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsində işləyib. 1977-ci ildə general-mayor, 1984-cü ildə general-leytenant hərbi rütbəsi alıb.

1988-1992-ci illərdə Azərbaycan SSR Nazirlər Sovetində Millətlərarası münasibətlər şöbəsinin müdiri vəzifəsində işləyib, 1992-ci ilin avqust ayında öz xahişi ilə təqaüdə çıxıb.

1999-cu il iyunun 28-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı ilə hərbi qulluğa bərpa olunaraq Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasına rəis təyin edilib.

Allah rəhmət eləsin.

## Xoşqədəm Hidayətqızının verilişləri bağlandı

**Sentyabrın 30-da Milli Televiziya və Radio Şurasının (MTRŞ) növbəti iclası keçirilib. MTRŞ-dan APA-ya verilən xəbərə görə, iclasda ANS televiziyası tərəfindən "Televiziya və radio yayımı haqqında" Qanunun tələblərinin pozulması faktı üzrə inzibati icraata baxılıb.**

ANS televiziyasının efirində həftə ərzində şənbə və bazar günləri istisna olmaqla, 1-5-ci günlər (bazar ertəsi-cümə günləri), saat 16.20-dən 19.00-dək yayımlanan "Sən tək deyilsən" proqramının, hər həftənin bazar günü saat 21:30-dan 24:00-dək yayımlanan "Xoşqədəmlə axtarıram səni" proqramının yayımının 05 oktyabr 2015-ci il tarixdən etibarən 1 (bir) ay müddətinə dayandırılması barədə qərar qəbul edilib.

İclasda həmçinin ANS televiziyasının efirində yayımı dayandırılmış "Sən tək deyilsən" proqramının efir vaxtında - həftə ərzində şənbə və bazar günləri istisna olmaqla, 1-5-ci günlər, saat 16.20-dən 19.00-dək və "Xoşqədəmlə axtarıram səni" proqramının efir vaxtında - hər həftənin bazar günü saat 21:30-dan 24:00-dək mədəni maarifçilik, intellektual xarakterli proqramların yayımının "ANS Müstəqil Yayım və Media Şirkəti" tərəfindən təmin edilməsi barədə qərar qəbul edilib.

Xoşqədəm Hidayətqızı ona zəng edən musavat.com-un müxbirinə deyib ki, hazırda veriliş canlı yayımla davam edir və o, reklam fasiləsindədir.



## Azərbaycanlı "şeyxlər" İstanbulda milyonlarla dollarlıq toy sifarişləri verib

**Neftin ucuzlaşması və gələn ilin büdcəsinin gəlirlərinin 5 milyard dollara yaxın az proqnozlaşdırılması azərbaycanlı zənginlərin büdcələrinə təsir etməyib. Virtualaz.org saytı Türkiyə KİV-lərinə istinadən xəbər verir ki, azərbaycanlı zənginlər özlərinə yeni maraqlı əyləncə kəşf ediblər. Bu dəfə onlar İstanbulda büdcəsi milyonlarla dollar təşkil edən toylar sifariş edirlər.**

Belə ki, Türkiyə toy turizmi üçün Yaxın və Orta Şərqdən, habelə Hindistandan olan zənginlərin son vaxtlar daha çox üstünlük verdiyi ölkələrdən biridir. Hindistanlı zənginlər son vaxtlar tez-tez Türkiyədə öz milli ənənələrinə uyğun toylar sifariş edirlər.

Turizm Media Qrupunun qurucusu Volkan Ataman deyir ki, gələn il İstanbulda hər birinin büdcəsi 8-10 milyon dollara qədər çıxa bilən hind toyları keçiriləcək və bu toylar səs-küyə səbəb olacaq.

Volkan Ataman hind toylarının Orta Şərqin zənginlərinin Türkiyəyə axınına səbəb olacağını deyib. Onun sözlərinə görə, Hindistandan ötən il bir çox zəngin müştərilər İstanbulda öz milli ənənələrinə uyğun toy sifariş ediblər. Gələn il üçün isə azı 10 hind toyu üçün sifariş alınıb. Bu toyların hər birində 2-3 min adamın iştirak edəcəyi, büdcəsinin isə 8-10 milyon dollar olacağı gözlənilir.

Toy turizmi üçün İstanbulu seçən müştərilər arasında Səudiyyə Ərəbistanı, Azərbaycan və Qazaxıstandan olanlar üstünlük təşkil edir. Onlar hərəsinin büdcəsi azı 1 milyon dollar və daha çox olan 50-dən çox toy sifarişi veriblər. Söhbət "Min bir gecə" nağıllarını xatırladan dəbdəbəli toy mərasimlərinin təşkilindən gedir.

Xatırladaq ki, azərbaycanlı zənginlər dəbdəbəli toylar üçün təkcə Türkiyəni seçmirlər. Bu yaxınlarda virtualaz.org xəbər vermişdi ki, Azərbaycandan olan bir zəngin Fransanın Lacivərd sahillərində dəbdəbəli toy sifariş verib. O, dünyanın ən məşhur şəxsləri - milyarderlər və estrada ulduzları, şahzadələr və bir günlük əyləncəyə milyonlarla avro xərcləyən biznesmenlər üçün dəbdəli toy mərasimləri təşkil edən məşhur britaniyalı prodüser Sara Heyvudun müştərisidir.

Sara Heyvud dünyanın çox zəngin adamlarına xidmət göstərən ən məşhur prodüserdir. Onun prodüser qrupu adı "Fortune 500" siyahısında (dünyanın ən məşhur və ən zəngin adamlarının reytinqi) olan şahzadələrə və estrada ulduzlarına, milyarderlərə xidmət göstərib.

Sara Heyvudun yaxın aylarda toy sifarişi aldığı müştərilərdən biri də Azərbaycandandır. Həmin müştəri Fransanın Lacivərd sahillərində yerləşən Sen-Trope kurort şəhərində toy sifariş verib.

Virtualaz.org

YENİ MÜSAVAT

## "Yeni Müsavat"ın baş redaktorunun nazirə müraciəti araşdırılır

**"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlunun qəzetin reportyorlarının hücuma məruz qalması ilə bağlı daxili işlər naziri Ramil Usubova müraciəti araşdırılır.**

Qəzetin hücuma məruz qalan hər iki reportyoru zərərçəkmiş şəxs kimi ifadə vermək üçün Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə dəvət olunublar.

Xatırladaq ki, sentyabrın 21-də Sabunçu rayonu ərazisində "Tornado" şirkəti tərəfindən aparılan söküntü işləri ilə bağlı çəkiliş etmək istəyən reportyorlar Məhəmməd Türkmən və İlkin Muradova şirkətin mühafizə xidmətinin ona yaxın əməkdaşı tərəfindən təzyiq göstərilib. Jurnalistlər şirkətin əməkdaşlarına vəsiqə göstərib özlərini təqdim etsələr də, buna məhəl qoyan olmayıb. Əvəzində şirkət işçiləri jurnalistlərin üstünə hücum çəkib, təhqir edib və fiziki təzyiq göstəriblər.

Baş verən hadisədən sonra qəzetin baş redaktoru Rauf Arifoğlu Azərbaycan Respublikası daxili işlər naziri general-polkovnik Ramil Usubova müraciət etmişdi. Baş redaktor nazirə müraciətində bu vəziyyətdə digər əməkdaşlarının da həyatlarına ciddi təhlükə yarandığını hiss etdiyini bildirmişdi.

R.Arifoğlu jurnalistlərə qarşı terrora yol vermiş şəxslərin tapılıb cəzalandırılmamasının onları başqa qanunsuz əməllər törətməyə ruhlandıra biləcəyini qeyd edərək, məsələnin tez bir zamanda hüquqi qiymət alması məqsədilə Ramil Usubova müraciət etmişdi.


**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 216 (6244) 1 oktyabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Cəbhəçilər arasında qarşılıqlı ittihamlar artır

**Bu ayın 18-də AXCP-dən ayrılan və partiya adına, möhürünə iddiasını irəli sürən Razi Nurullayevin rəhbərlik etdiyi Etimad Qurultayı üzrə Təşkilat Komitəsinin (EQTK) qurultayı keçiriləcək. Tədbirə yer ayrılması ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə sentyabrın 28-də müraciət ünvanlanıb. Aidiyyəti qurum hələ müraciətə cavab verməyib.**

## Razi Nurullayev AXCP sədrinin əmisi oğlu ilə bağlı Fransa səfirliyinə müraciət edəcək

EQTK rəhbərliyi qurultay keçirmək üçün planlaşdırdığı Səttar Bəhlulzadə adına Mədəniyyət Evinin tutumunu nəzərə alaraq, 1000 nəfərdən çox insanın iştirakı ilə möhtəşəm təsis konfransı keçirməyi nəzərdə tutur.

Qurultay hazırlığı, yaşanan son proseslərlə bağlı EQTK sədri **Razi Nurullayevlə** söhbət etdik. O, oktyabrın 15-nə qədər bütün işlərini yekunlaşdıracaqlarını bildirdi: "Yarıdan çox rayonda konfranslarımızı yekunlaşdırmışıq. Ayın 15-nə qədər əsas rayonlarda konfranslarımızı bitirmiş olacağıq. Dəvət etdiyimiz qonaqlarımız, dostlarımızla birlikdə 1000 nəfərdən çox insanın iştirakı ilə qurultayımızı keçirəcəyik. Əsas hədəfimiz daha çox rayonları əhatə etməkdir. Çox çətin bir şəraitdə fəaliyyət göstərməli oluruq. Çünki Azərbaycan insanının siyasətə marağı azalıb. Rayonlarda vəziyyət çox pisdir. İnsanlar siyasətdən iyrəniblər. Onları inandırmaq da vaxt tələb edir. Rayonlarda konfransların keçirilməsi üçün yerlərin olmadığı, polislərin basqısı ciddi problemlər yaradır. Düşünürəm ki, belə bir şəraitdə konfranslar keçirməyimiz, iki ay ərzində qurultaya hazırlığı yekunlaşdırmağımız "Ginnesin Rekordlar Kitabı"na düşə bilər. Bir neçə gündür ki, yerlə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə müraciət etmişik. Yaxın günlərdə cavab gözləyirik".

**R.Nurullayev hakimiyyətin 2000-ci illərdə Əli Kərimli ilə oynadığı oyunları bu dəfə onunla həyata keçirməsi barədə cəmiyyət arasında gəzən söz-söhbətlərə də aydınlıq gətirdi:** "Azərbaycanın siyasət aləmində önə çıxmaq üçün münbit bir şərait var. Siyasi boşluq, ideologiyanın olmaması, eyni zamanda siyasətçilərin indiyə qədər xalqın başına gətirdikləri oyunlardan sonra elə bir şərait yaranıb ki, səmimi, xalqla birlikdə qəlbi döyünən insan qabağa gedə bilər. Bunun qarşısını nə hakimiyyət, nə də düşmən qüvvələr ala bilməz. Hesab edirəm ki, hazırda apardığımız fəaliyyətə hakimiyyətin təsir göstərmək mexanizmi yoxdur. 2000-ci ildə olan siyasi şərait indi mövcud deyil. Oxşarlıqlar ola bilər. İnsanların düşüncəsi həmin dövrün düşüncəsi ilə eyni ola bilməz. Düşünürəm ki, bu gün atdığımız addımlar, apardığımız siyasət cəmiyyətdə fenomenə çevrilə bilər. Əli Kərimlinin hakimiyyətlə ciddi oyunlara getdiyi hər kəsə məlumdur. İlk dəfə deputatlığın alınıb-satılması



Razi Nurullayev

Kərimlinin adı ilə bağlıdır. İlk dəfə liderinə qarşı çıxaraq, partiya içərisində qruplaşma yaratmaq və insanları öz liderinə qarşı çıxmağa təhrik etmək də onun adı ilə bağlıdır. Azərbaycan siyasətində yaranan koalisiya, blokları dağıdan, siyasətə intriqalar gətirən Əli Kərimlidir. Bu statusda ondan çox fərqliyəm. Düşüncə tərzim, tərbiyəm, siyasi mədəniyyətim, təhsilim, dünyagörüşüm 100% ondan fərqlənir. Mən təsir altına düşən insan deyiləm. Siyasəti qiymətləndirməyi bacarıram. Əli Kərimli bu gün və sabahı üçün düşünür. Normal düşüncəyə tamamilə malik insan deyil. Xarici siyasəti mövcud daxili siyasətə uyğunlaşdırmağı bacarıram. Onda isə heç zaman belə bir siyasi gedişlər görməmişəm".

**Müsahibimiz Ə.Kərimli qanadı tərəfindən onların içərilərinə atılan, sonradan qurultay günü məqsədli şəkildə bu addımı atdığını deyən Ruslan Nəsirli adlı AXCP gəncinin məsələsinə də toxundu:** "Bu barədə müəyyən söhbətlərimiz olur. Açığı, ətrafımda olan dostlarım və tərəfdarlarım bu məsələ ilə bağlı sadəcə əylənirlər. İclasımızda bu məsələ müzakirə olundu və hər kəs güldü. Nəyə görə? Çünki Ruslan Nəsirli biz tərəfdə olanda müəyyən hadisələr olmuşdu. Ofisdə dəfələrlə tək qalmaq cəhdlərinin şahidi olmuşduq. Məqsədi kompyüterlərdən müəyyən şəxsi xəbərləri oğurlamaq, sənədləri aparmaq idi. Amma bizdə gizli bir şey yoxdur. Ruslan məsələsi xalqımız üçün bir mənəviyyat dərsi oldu. Əli Kərimli gənclərin mənəviyyatını pozur. O, gəncləri insanları təhqir etməyə sövq edir. Onları satqınlığa, söz aparıb-gətirməyə öyrədir. Ruslan Nəsirli birbaşa Kərimlinin tapşırığı ilə içərimizə göndərilmişdi. Onun üçün "işverən"lik edirdi. Bu fəaliyyət Azərbaycan gəncinin mənəviyyatını korlamaz, söyüşə öyrətməz. Onları bu kimi işlərə sövq etmək siyasətçiyə yaraşarmı? Əli Kərimlinin ətrafında olan insanların ən çox işlətdikləri şərəfsiz, namussuz kimi sözlərdir. Onun müavinləri, müşavirləri və eləcə də ətrafında olan bütün insanların işlətdikləri sözlər mentalitetimizə sığmayan söyüşlərdir. O söyüşlərə görə Əli Kərimli və ətrafı həbsə getməlidir. Bu təhqirlərə görə xüsusi cinayət maddələri var. Düşünürəm ki, bu, nə zamansa baş verəcək. Onlar xalqımızı təhqir edirlər. Hətta öz rəqiblərinin ailələrinə belə söz deməkdən çəkinmirlər. Kərimliyə buradan səslənib deyirəm ki, nə qədər məni təhqir etsəniz də, sizlərə cavab verməyəcəm. Səbirli olacam. Amma bir şeyi Kərimli xatırlasın ki, bütün cəmiyyət bilir, onun ailəsi təhqir olunan zaman daim yanında olduq. Heç bir təhqiri onun ailəsinə rəva bilmədik, bu gün də, sabah da bilməyəcəyik. O, bu hadisəni yaşamış şəxs kimi, gərək bunları heç kimə rəva görməsin".

**R.Nurullayev AXCP sədrinin Fransada yaşayan əmisi oğlu ilə bağlı səfirliyə müraciət edəcəyini söylədi:** "Kərimlinin doğma əmisi oğlu, Fransada siyasi mühacirətdə yaşayan İnqilab Kərimov elə şəkillər paylaşır, ifadələr işlədir ki, buna görə yaşadığı ölkə onu ömürlük həbsə məhkum etməlidir. Bununla bağlı Fransa səfirliyinə xüsusi müraciət hazırlayıram. O, Fransa və Azərbaycan qanunları ilə həbsə atılmalıdır".

❑ **Cavanşir ABBASLI**

# AXCP üzvləri nə üçün bir-birilərini döyürlər?

## Mikayıl Quliyev: "Məni təpiklədi, köynəyimi cırıq-cırıq etdi"

## Məmməd İbrahim: "Üstümə hücum çəkdi"

**AXCP daxilində baş verən məlum proseslər kritik həddə çatıb. Sentyabrın 27-də qurumun Əli Kərimli qanadının keçirdiyi qurultay nəinki narazılıqları səngitdi, əksinə, daha da alovlandırdı. Artıq narazı tərəflər söz savaşından qol davasına keçiblər.**

Belə ki, sentyabrın 29-da axşam saatlarında AXCP sədrinin müşaviri Məmməd İbrahim partiyanın digər narazı qanadının, AXCP Etimad Qurultayı üzrə Təşkilat Komitəsinin (EQTK) Nərimanov şöbəsinin Ali Məclis üzvü Mikayıl Quliyevi döyüb. Ciddi xəsarətlər alan M.Quliyev Nərimanov Rayon Polis Şöbəsinə şikayət edib. Hadisədən dərhal sonra AXCP sədrinin müşaviri saxlanılaraq, 18-ci polis bölməsinə aparılıb. İzahatı alındıqdan sonra araşdırma müddətində polis bölməsinə gəlmək şərti ilə sərbəst buraxılıb.

Hadisədən sonra cəbhəçilər sosial şəbəkələrdə zərərçəkmişin və EQTK üzvlərinin üzərinə kütləvi şəkildə hücuma keçiblər. Ən ağır küçə söyüşləri ilə əks düşərgə təhqir olunub. Açıq şəkildə M.Quliyev və EQTK üzvlərini "işverən"likdə suçlayıblar.

Qeyd edək ki, aylar öncə də AXCP daxilində buna bənzər hadisə yaşanmışdı. O vaxtlar qurumun Rəyasət Heyətinin üzvü olan, sonradan partiya sədrliyinə iddiasını irəli sürən Sahib Kərimli AXCP-dən xaric edilən Nərimanov təşkilatının sabiq şöbə müdiri Ağaşirin Tanrıverdioğlunu döymüşdü. Sabiq şöbə müdiri bununla bağlı polis şöbəsinə şikayət etsə də, sonradan ərizəsini geri götürmüşdü.

Göründüyü kimi, AXCP daxilində hadisələr heç də müsbət istiqamətə doğru getmir. Artıq düşmənçilik son həddə çatıb. İllərin əqidədaşları, dostları bir-birilərinə əl qaldırmaqdan, bir-birilərini küçə söyüşləri ilə aşağılamaqdan belə çəkinmirlər. Bütün bunlar hər şeyin, bu günə qədər gəlinən yolun sonu deməkdir...

**Baş vermiş hadisəni obyektiv olaraq, araşdırmağa çalışdıq. Zərərçəkmiş M.Quliyev "Yeni Müsavat"a açıqlamasında başına gələnləri təfsilatı ilə danışdı:** "Axşam saatlarında evə gəlirdim. Yolda dostlarımla rastlaşdım. Söhbət edən vaxt salamsız-kəlamsız qəflətən arxadan kiminsə üstümə şığıdığını hiss etdim. Geriyə dönənə qədər məni vurmağa başladı. Ən ağır söyüşlər söyürdü. Baxdım ki, Əli Kərimlinin internet üzərindən müşaviri olan Məmməd İbrahimdir. Təbii ki, cavab qaytarmaq haqqım idi. Mən də ona öz sözlərimi dedim. Məni təpiklədi, köynəyimi cırıq-cırıq etdi. Dostlarım ayırdılar. Nərimanov şöbəmizin sədrinə zəng etdim. O, məni taksi ilə polis şöbəsinə apardı. Arxasınca Məmməd İbrahimi də şöbəyə gətirdilər. İzahatımı vermişəm, ekspertizadan keçmişəm. Haqq-ədalət öz yerini tapacaq. Şahidlərim də var. Öz izahatlarını veriblər".

**Zərərçəkən A.Tanrıverdioğlu kimi güzəştə getməyəcəyini də qeyd etdi:** "Məmməd İbrahim mənə o tərbiyəsizliyi edib. Kim qarşıma çıxsa da, güzəştə getməyəcəm. Sona qədər bu məsələnin arxasında duracam. Məmməd İbrahim cəzalandırılmalıdır. Hadisədən sonra cəbhəçilər məni təhqir etməklə bərabər "işverən" adlandırırlar. Getsinlər o sualı Məmməd İbrahimə versinlər ki, Asif Yusiflini nə üçün tutdurdu? Əli Kərimlinin ətrafındakı 10 nəfərdən 9-u "işverən"dir".

**EQTK mətbuat xidmətinin rəhbəri Vüsal Qarayev təhqir olunmaları ilə bağlı bunları dedi:** "Onlar öz tərbiyələrini nümayiş etdirirlər. Bu söyüş və təhqirlərə ən gözəl cavabımız susmaqdır. Özümüzü onların səviyyələrinə endirmək istəmirik. O ki qaldı Mikayıl Quliyevin döyülməsinə, deyə bilərəm ki, qanunlar çərçivəsində tədbir görüləcək. Əli Kərimli və ətrafı məğlub olduqlarını gözəl anlayırlar. Nə etdiklərini bilmirlər. Əvvəl söyüşlə mübarizə apardılar, susduq. Ən ağır təhqirlərə keçdilər, yenə də susduq. Olmayan sözləri üzvlərimizə qarşı yazdılar. Biz susduqca, onlar qıcıqlanır. İndi də üzvümüzü döydülər. Hüquq çərçivəsində tədbir görüləcək. Onlara qarşı qanunla mübarizə aparacağıq. Tədbir mütləq görülməlidir. Çünki bu proseslərin sonu heç də yaxşı görünmür. Daha pis hadisələr baş verə bilər".

**EQTK üzvü Cavid Musazadə baş verən bütün proseslərin arxasında Ə.Kərimlinin dayandığını söylədi:** "Əli Kərimlinin yanından ayrılan hər bir şəxsə qarşı şər-böhtan atılır, təhqir yağdırılır. Hər gün bir rayonda uduzurlar. Bu isə aqressiv olmalarına səbəb olur. Əli Kərimlinin söyüş maşınının başında duranlardan biri Məmməd İbrahimdir. Gizli qrupları idarə edir, orada təlimatlar yazır. Cəbhəçilər bu təlimatlara uyğun hərəkət edirlər. Kərimli gestaposunun başında duran Məmməd İbrahimdir. Bunlara hökumət tərəfindən reaksiya verilmədiyinə görə, onlar getdikcə azğınlaşırlar. Əslinə qalsa, sosial şəbəkələrdə insanları təhqir etmək cinayət məsuliyyəti daşıyır. Dəfələrlə müraciət etmişik, amma tədbirlər görülmür. Dövlət baş verənlərin qarşısını almalıdır".

**M.İbrahim də öz növbəsində sosial şəbəkələrdə baş verən hadisə ilə bağlı status paylaşıb. O, Mikayıl Quliyev tərəfindən təxribata çəkildiyini bildirib:** "Mikayıl Quliyev adlı biri öz FB səhifəsində hər gün məni söyüb, nalayiq sözlərlə təhqir edirdi. Bir-iki dəfə onu tanıyanlardan xəbər göndərdim ki, kişi söyüş söyməz, ayıbdır. Amma yenə də bildiyindən qalmadı, söyüşləri davam etdirdi. Məqsəd də məni özümdən çıxardıb, təxribata çəkməkdir. Amma mən bir dəfə də olsun, ona cavab verməmişəm. Dünən həmişəki kimi, axşamtərəfi Nərimanov cəbhəçiləri ilə görüşdüyümüz yerə gedərkən, Mikayılı da orda gördüm. Ona "söyüş söymə, kişi söyüş söyməz" dedim, bu isə "yaxşı eləyirəm, daha artığını edəcəm" deyə üstümə hücum çəkdi. Yanımızda olan uşaqlar araya girib, onu kənara çəkdilər, bu zaman onun əynində olan köynək azca cırıldı".

❑ **Cavanşir ABBASLI**

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn deputatlığa namizədliyini irəli sürüb. Musavat.com Pənah Hüseynin imzatoplama kampaniyası və imza vərəqələrinin Dairə Seçki Komissiyasında yoxlanılması prosesi zamanı baş verən neqativ hallar haqqında müsahibəsini diqqətinizə təqdim edir:**


Pənah Hüseyn

# Pənah Hüseynin imza vərəqələri və qeydiyyat sənədləri oğurlanıb?

## "İmza vərəqələrinin dairədən çıxarılması da nonsensdir"

***– Pənah bəy, müxalifətdən olan namizədlərə qarşı təzyiqlər və qanunsuzluqlar barədə seçki dairələrindən gələn informasiyalar günbəgün intensivləşir. Sizin namizədliyinizlə bağlı vəziyyət nə yerdədir?***

- "Azadlıq-2015"-in irəli sürdüyü namizədlərə münasibətdə təzyiq, qanun pozuntuları və ayrı-seçkilik faktları kifayət qədərdir. Bu barədə bizim bir neçə bəyanatımız dərc edilib. Lakin şəxsən mənə qarşı və ya mənlə əlaqəli hər hansı bir təzyiq və qanunsuzluq halı olmamışdı.

***– Bəs indi baş veribmi, ya baş verirmi?***

- Namizədliyimlə, lakin seçki komissiyası üzvləri ilə əlaqədar olmayan məsələlər var ki, mən hazırda bunlar barədə danışmaq istəmirəm. Lakin bu gün "heç nə yoxdur" demək də mümkün deyil. Və bu "heç nə olmayan" şeylər artıq seçki komissiyası ilə bağlıdır. Bu "heç nə olmayan" şeylərin yuxarıda toxunduğum, ancaq haqqında hələlik danışmaq istəmədiyim məsələ ilə əlaqəsi də istisna deyil.

***– Konkret olaraq, deyə bilərsinizmi ki, narahatlıq nədən ibarətdir?***

- Seçki Məcəlləsinin 59.3-cü maddəsinə görə, müvafiq seçki komissiyası imza vərəqələrinin yoxlanılması haqqında namizədə və ya səlahiyyətli nümayəndəyə qabaqcadan məlumat verməlidir. Belə ki, göstərilən şəxslər imza vərəqələrinin yoxlanılması prosesində iştirak etmək hüququna malikdirlər. Mən imza vərəqlərini və tələb olunan digər sənədləri sentyabrın 25-də saat 12-də təhvil vermişəm. DSK sədrinə, katiblərinə, o cümlədən də işçi qrupun rəhbəri kimi təqdim olunan katib Azər müəllimə bildirmişəm ki, yoxlama prosesində özüm və nümayəndələrimiz iştirak etmək istəyirik. Bizim seçki dairəsinin ərazisində "Azadlıq-2015"-in bir neçə səlahiyyətli nümayəndəsi var. Özüm demək olar ki, son dövrlərdə hər gün buradayam. Bilavasitə, yaxud telefonla dairə seçki komissiyasının sədri və katibi ilə mütəmadi əlaqə saxlayırıq. Artıq oktyabrın 1-də mənim qeydiyyatımla bağlı qanunun müəyyən etdiyi son müddət olan 7 gün tamam olur. Lakin hələ də nə mənə, nə də mənim səlahiyyətli nümayəndələrimə heç bir məlumat verilməyib ki, imza vərəqələrinin yoxlanılmasında iştirak edək. Belə çıxır ki, mənim imza vərəqlərimin yoxlanılmasına başlanılmayıb?

***– Bəlkə yoxlama həqiqətən də başlanmayıb?***

- Lakin qanunun müəyyən etdiyi son müddətə cəmi bir gün qalır və Seçki Məcəlləsinin 59.13-cü maddəsinə görə, imza vərəqələrinin yoxlanılmasının nəticələri haqqında işçi qrupun rəhbərinin tərtib edib, imzaladığı protokolun surəti namizədin qeydə alınmasına baxan seçki komissiyasının iclasının başlanmasına ən azı 24 saat qalmış namizədə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinə verilir. Bundan əlavə, yenə Seçki Məcəlləsinin həmin maddəsinə görə, imzalar yoxlanılarkən lazımi sayda seçici imzalarının olmadığı aşkar edilərsə, namizəd və ya səlahiyyətli nümayəndə işçi qrupun təsdiq etdiyi protokolun surəti ilə yanaşı, seçici imzalarının etibarsız sayılmasının əsasları göstərilməklə, müvafiq qovluğun nömrəsi, müvafiq imza vərəqəsindəki sətrin nömrəsi qeyd olunan yoxlamanın nəticələri barədə cədvəlin surətini də almaq hüququna malikdir. Əgər təqdim olunan məlumatlarda anlaşılmazlıqlar varsa, onların da düzəldilməsi üçün qanunla nəzərdə tutulan hərəkətlərə şərait yaradılmalıdır və s. Seçki dairəsində deyirlər ki, qərar 1 oktyabrdakı iclasda çıxarılacaq. Əgər iclas sabah olacaqsa ki, başqa müddət də mümkün deyil, yoxlama olmayıbsa, iclasa nə çıxarılacaq? Yoxlama olubsa, bizə niyə deyilməyib və protokol, rəy hanı? Mən səhərdən dairədəyəm. Dairədə bir katib və qadın işçidən başqa heç kim yoxdur. Yoxlama filan getmir. Belə görünür ki, imza vərəqələri dairədə yoxdur. İmza vərəqələrinin dairədən çıxarılması da nonsensdir. Görürsünüz ki, məsələ elə də sadə deyil. Qəribə olan odur ki, mən imzaları təhvil verdiyim gün imza vərəqələri alan şəxslər barədə artıq qeydiyyat qərarları var.

***– Dediyiniz protokol, xüsusən də cədvəl yoxdursa, sizə verilməyibsə, ən azı indiki zaman üçün mənfi ehtimallar haqqında düşünməyə bəlkə də əsas yoxdur?***

- Normal məntiqlə düşünsək, belə çıxır. Prinsipcə imza vərəqələri və ona əlavə edilən sənədlərdə də bir problem yoxdur. Ancaq son günlər bizə müxtəlif şayiələr gəlib çatır. Məsələn, deyirlər ki, mənim sənədlərim hazırda heç dairədə də deyil, yoxlamağa aparıblar, gəlib çıxmır. İnandırıcı gəlmir. Ancaq sənədləri göstərən yoxdur. Deyirlər ki, sədr Bakıdadır. Gözləyirik.


Şahbaz Xuduoğlu

# Sevinc Telmanqızının kitabı gömrükdən buraxılmır

## Şahbaz Xuduoğlu: "Dedilər oxuyub verəcəyik"

**"Yeni Müsavat" qəzetində mühacirət etmiş azərbaycanlılarla bağlı çap olunan yazılar kitab halına salınıb. "Xatirələrin işgəncəyə döndüyü yer" adlı kitab bir müddət əvvəl ölkə xaricində çap edilsə də, Azərbaycana girişinə imkan verilmir. Kitablar 15 gündür ki, gömrükdə saxlanılır.**

"Qanun" nəşriyyatının rəhbəri Şahbaz Xuduoğlu məsələ ilə bağlı musavat.com-a bildirib ki, kitabların saxlanması qanunsuzdur: "Bəzən belə hallar olur. Dini kitablar saxlanılır, bir müddət incələnəndən sonra gömrük qaytarır. "Yeni Müsavat" qəzetinin yazarı Sevinc Telmanqızının kitabı xaricdə yaşayan azərbaycanlıların həyatından bəhs edir. Bu yazılar "Yeni Müsavat" qəzetində gedib və oxunub. Dini məzmunu yoxdur. Amma nəyə görəsə kitab sentyabrın 15-dən Bakı gömrüyündə saxlanılıb. Dedilər oxuyub verəcəyik. Amma hələ də verilmir. Demək olar ki, hər gün zəng edib kitabın taleyi barəsində soruşuruq, hər dəfə də cavab eyni olur, deyirlər ki, özümüz zəng edəcəyik".

Dövlət Gömrük Komitəsindən isə üç gün ərzində suallarımızı cavablandıran olmadı.

❑ **RÖYA**


Sərdar Cəlaloğlu

# Sərdar Cəlaloğlu Hafiz Hacıyevə cavab verdi

## "Biz maraqlanmırıq o qalırmı, partiyası varmı"

**"Dünən bizim partiyanın siyasi şurası yeni qərar qəbul etdi. Mən özüm səhhətimlə bağlı parlament seçkilərində namizəd kimi iştirak etməyəcəyəm".**

Bunu hafta.az-a açıqlamasında Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev deyib. MMP sədri bildirib ki, buna baxmayaraq, partiyanın üzvlərinə sərbəstlik verilib: "Onlar sərbəst şəkildə parlament seçkilərinə namizədliklərini irəli sürə biləcəklər. Xaricdəyəm, amma mənə çatan məlumatlara görə, bölgə təşkilatımız da seçkilərə hazırlaşır. Özüm partiya sədri olaraq parlament seçkilərinə qatılmasam da, partiya demək olar ki, seçkilərə hazırlaşır".

**Hafiz Hacıyev həmçinin vurğulayıb ki, o, Qərbin Azərbaycana qarşı apardığı qarayaxma kampaniyaları ilə bağlı göstəriş də verib:** "Bununla bağlı onların cavablarını verməklə üçün planlarımız var. İki-üç günə geri qayıdacağam. Ölkə rəhbərinin müdafiəsi ilə bağlı müəyyən ideoloji qrupların yaradılmasına köklənəcəyik. İşimizi prezidentin müdafiəsi ilə bağlı qurmağa çalışacağıq. Bizim üçün dövlətçilik hər şeydən üstündür. Biz dövlətimizə zərbə vuranların cavabsız qoyulmasına imkan verməyəcəyik. Prezidentin müdafiəsi üçün daxildən və xaricdən olan qüvvələrə qarşı mübarizə planı hazırlayırıq".

**H.Hacıyev onu da deyib ki, rəhbərlik etdiyi təşkilatın bu seçkilərdə tək qalmış Azərbaycan Demokrat Partiyası (ADP) ilə birgə blok yaratması məsələsinin müzakirəyə çıxarılması istisna deyil:** "Sərdar Cəlaloğlu ilə blok yaratmaq məsələsinə gəlincə, onu deyə bilərəm ki, bizim Sərdar bəylə çox yaxşı münasibətlərimiz var. Blok yaratmaqla bağlı onunla mənim aramda söhbət olmayıb. Lazım olsa, bu barədə söhbəti müzakirəyə çıxaracağıq".

**ADP sədri Sərdar Cəlaloğlu isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Hafiz Hacıyevlə heç bir münasibəti yoxdur. Münasibət yoxdursa, Hafiz Hacıyevin nədən "çox yaxşı münasibətimiz var" deməsi təəccüblüdür:** "Şəxsən mən onu sonuncu dəfə 2013-cü ilin prezident seçkisində İctimai Televiziyada prezidentliyə namizədlər efirə çıxdığı zaman görmüşəm. O vaxtdan bu günə qədər onu görməmişəm. Bizim aramızda bu günə qədər hər hansı yaxın münasibət, əməkdaşlıq olmayıb. Müavinlərimiz arasında da hər hansı bir təmas olmayıb. Bizim partiyalarımız arasında əməkdaşlıqla bağlı da söhbət olmayıb və olması da gözlənilmir. Hafiz Hacıyev zaman-zaman mənim haqqımda, ADP haqqında ən ağır sözlər işlədib. İndi isə deyir ki, Sərdarla yaxşı münasibətim var. Mən Hafiz Hacıyevin zaman-zaman bizə qarşı işlətdiyi sözlərə cavab verməmişəm. Hafiz Hacıyevlə mənim aramda nə düşmənçilik münasibəti var, nə də dostluq, yaxınlıq. Heç bir təmasımız yoxdur. Biz maraqlanmırıq və məlumatımız da yoxdur ki, Hafiz Hacıyev qalırmı, onun partiyası varmı. Bizim Müasir Müsavat Partiyası ilə hər hansı münasibətimizin olması mümkün deyil. Biz tək qalmamışıq, bizi heç kəs təkləməyib, biz özümüz indiki mövqeyə çəkilmişik. Bizimlə əməkdaşlığa hazır olan xeyli qüvvələr var. Biz sadəcə olaraq indi əməkdaşlıq məsələsinə baxmırıq. Seçkilər bitsin, münasibətlər aydınlaşsın. Seçkidən sonrakı dövrdə əməkdaşlıq məsələsi gündəmə gələrsə, biz müəyyən qüvvələrlə əməkdaşlıq edəcəyik. O da həmin qüvvələr ola bilər ki, onlarla uzun illər bir cəbhədə olmuşuq, demokratik müxalifətdirlər. Hafiz Hacıyev isə həmin kateqoriyaya daxil olmadığı üçün bizim onunla müttəfiqliyimiz mümkün olmayan məsələdir".

❑ **E.SEYİDAĞA**

# Arzu Səmədbəyli DSK və MSK-dan məhkəməyə şikayət etdi

## Müsavatın namizədləri seçki qanunsuzluqları ilə üzləşir

**1 noyabr parlament seçkisində namizədlərin qeydə alınması üçün sənədlərin qəbulu oktyabrın 2-də başa çatır. Müxalifətçi namizədlərin bir qayda olaraq qeydə alınmaması, imza toplayan şəxslərə, hətta namizədlərin özlərinə açıq və gizli təzyiqlər haqda xəbərlərin isə ardı-arası kəsilmir.**
**Daha çox Müsavat Partiyasından olan namizədlərin qanunsuzluqlarla qarşılaşdıqları gələn xəbərlərdən aydın olur.**


Arzu Səmədbəyli

Gəncədə 38 saylı seçki dairəsindən Müsavatın namizədi olan Cahangir Əmirxanlı onun namizədliyinin müdafiəsinə toplanan imza vərəqələrini və digər sənədləri DSK-ya təqdim edib. Təbii ki, imza vərəqələrinin və müvafiq sənədlərin təqdim olunduğu haqda arayış alıb. Sonradan DSK sədri Cahangir Əmirxanlıya zəng edərək, ondan DSK-ya gəlməsini xahiş edib, arayışın qeydiyyat nömrəsində problem olduğunu və bunu düzəltmək istədiyini deyib. Cahangir Əmirxanlı bildirib ki, o, DSK-ya əvvəlki arayışı qaytardıqdan sonra onun üçün yeni arayış yazıblar, lakin yeni arayışı verməli olan şəxs DSK sədrinin imzalaması üçün otaqdan çıxsa da, geri qayıtmayıb.

Cahangir Əmirxanlıya imza vərəqələrinin təhvil verilməsi haqda yeni arayışın verilib-verilməyəcəyini sabah öyrənib oxuculara məlumat verməyə çalışacayıq.

**54 saylı Şabran Siyəzən seçki dairəsində isə Müsavatın deputatlığa namizədi Nadir Qafarzadənin imza vərəqələrini təhvil almaqdan imtina edirlər. Partiyanın səlahiyyətli nümayəndəsi Mərdan Mehdili bildirib ki, bu gün (dünən-red.) gün ərzində imza vərəqələrini və digər zəruri sənədləri DSK-ya təqdim edə bilməyiblər:** "DSK-da deyirlər ki sədr burda yoxdur. Onlara dedim ki, sədr olmadıqda sənədləri DSK-nın başqa üzvü qəbul etməlidir. Deyirlər ki qəbul edə bilmərik. Hətta deyirlər ki, DSK sədri sabah da olmayacaq".

**85 saylı Şamaxı seçki dairəsindən Müsavat Partiyasının deputatlığa namizədi Yasəf Ağazadə isə görünməmiş cinayətlə üzləşib. Dediyinə görə, onu təqib edən insanlar onun imza vərəqələrini və digər sənədlərini zorakılıqla əlindən alıblar:** "Bakıya, Müsavatın qərargahına gəlirdim. Namizədliyimin müdafiəsi üçün toplanılan 500 imzanı və DSK-ya təqdim edəcəyim digər sənədləri qərargahda yoxlatdırdıqdan sonra qayıdıb təhvil verməyi planlaşdırmışdım. Yolda təqib olunduğumu hiss elədim. Gəlib Bakıya çatan kimi məni təqib edən şəxsin hücumuna məruz qaldım. Onlar zorla əlimdəki qovluğu aldılar. Qovluqda bir-bir topladığımız seçici imzaları, evimin kupçası və DSK-ya verəcəyim digər seçki sənədləri vardı. Hadisə təxminən 13.00 radələrində Bakı şəhərinin "Şamaxinka" deyilən ərazisində, dayanacaqda avtobus gözləyərkən baş verdi".

Bununla bağlı dərhal polisə şikayət etdiyini bildirən Yasəf Ağazadə ona hücum edən şəxsin üzünü yadda saxladığını və tanıya biləcəyini qeyd edib.

Müsavatın seçki qərargahından bildirilib ki, hakimiyyət bu addımlarla Müsavatın seçkidə iştirakından ciddi narahat olduğunu sübut edir.

Müsavat Partiyası tərəfindən deputatlığa namizədliyi irəli sürülən sabiq millət vəkili Arzu Səmədbəyli isə 8 saylı Dairə Seçki Komissiyasının 23 sentyabr tarixli 18/3 saylı və Mərkəzi Seçki Komissiyasının 28 sentyabr tarixli 24/169 saylı qərarlarından Apelyasiya Məhkəməsinə şikayət ünvanlayıb. Bu barədə Müsavat Partiyasından məlumat verilib. Qeyd edək ki, 8 saylı DSK 23 sentyabrda Arzu Səmədbəylinin namizədliyinin qeydə alınmaması barədə qərar çıxarıb. Mərkəzi Seçki Komissiyası isə Arzu Səmədbəylinin bu qərarın ləğv edilməsi üçün rəsmi müraciətinə 28 sentyabrda baxaraq qərarı qüvvədə saxlayıb.

Arzu Səmədbəyli Apelyasiya Məhkəməsinə müraciətində DSK-nın çıxardığı qərarın heç bir sübut, qanuni əsas olmadan, ekspertlərdən ibarət işçi qrupu təşkil edilmədən əsassız olaraq çıxarıldığını, bu qərarın çıxarılması ilə onun seçilmək hüquqlarının pozulduğunu, Seçki Məcəlləsinin konkret maddələrinin pozulduğunu qeyd edib.

Xəbərdə deyilir ki, A.Səmədbəyli DSK-nın və MSK-nın qərarının ləğv olunması, hüquqlarının bərpa edilməsi üçün sonadək mübarizəni davam etdirəcək.

❑ **E.SEYİDAĞA**

# "Oyun oynamağım barədə iddialar doğru deyil"

## **Sahib Kərimli:** "İctimaiyyət ancaq şayiələrə və faktları gözdən salmağa hesablanmış kompromatları izlədi, təəssüflənirəm"

**AXCP-nin bir neçə gün əvvəl keçirilən qurultayında partiya sədrliyinə namizəd olan Sahib Kərimli namizədliyini geri götürəndən sonra medianın suallarını cavablandırmır. O, bununla bağlı sosial şəbəkədə yazdığı statusda bildirib ki, müzakirələri birtərəfli qaydada dayandırır. O, qurultay günü gizli səsvermə olmadığını arqument gətirib namizədliyini geri götürüb. Ancaq onun bu hərəkəti iddialara səbəb olub. Qısası, Sahib Kərimlinin sədrliyə namizədliyini irəli sürməsini AXCP sədri Əli Kərimlinin projesi hesab edənlər az deyil.**


Sahib Kərimli

S.Kərimli musavat.com-a müsaibə verməməsini partiya sədrinin sözügedən sayta münasibətinin yaxşı olmaması, bu səbəbdən AXCP üzvlərinin müsahibələrinə qadağa qoyması, tezliklə AXCP Etimad Qurultayının keçiriləcəyini və indiki məqamın ciddi bir nöqtə olduğunu bildirməklə əsaslandırdı. Lakin bir neçə sualı cavablandırdı.

- Bu dönəm üçün mən birtərəfli qaydada müzakirələri dayandırmışam.

***- Qarşı çıxdığınız sədrinizin tələbləri sizin üçün nə dərəcədə əhəmiyyətlidir? Yəni nə səbəbdən onun münasibətinə uyğun olaraq bizim qəzetə münasibət sərgiləyirsiz?***

- Yox. Bir sıra məsələlər var. Mən yenidən Rəyasət Heyətinə namizədliyimi verməyəcəm. Ali Məclis keçirilib, partiya strukturları yenidən formalaşdırıldı. Mən bütün prosesl bağlı müsahibə verəcəm. İlk olaraq da sizə müsahibə verərəm.

***- Amma vaxt gedir. Bir müddət sonra Sahib Kərimli fiquru media üçün əhəmiyyətli olmaya bilər.***

- Mən hesab edirəm ki, Sahib Kərimli kifayət qədər çevik siyasətçidir. O istənilən anda medianın gündəminə gələn hərəkət edə bilər.

***- Qurultaydan keçən müddətdə partiya üzvlüyü ilə bağlı fikrinizi qətiləşdirdiniz? Partiyadan çıxacaqsınızmı?***

- Xeyr, mən sıravi üzv olaraq partiyada qalacam. Ancaq partiyanın heç bir seçkili orqanında təmsil olunmayacam.

***- Nə səbəbdən?***

- 2018-dən sonra partiya sədrliyi uğrunda mübarizəyə başlayacam.

***- Bəs sizi partiyadan sizi çıxara bilərlərmi?***

- İnanmıram məni partiyadan çıxarsınlar.

***- Amma ortada Razi Nurullayev nümunəsi var.***

- Buna inanmıram. Mənim tənqidlərim bu gün başlamayıb. 23 ildir partiyada Rəyasət Heyətində tənqidlərimi səsləndirirəm.

***- Qurultaydan sonra sizinlə bağlı ciddi iddialar səsləndi. İddialar budur ki, siz Əli Kərimlinin təlimatı ilə oyun oynadınız bu seçkidə. Bu, nə dərəcədə doğrudur?***

- Media və bizim qurultayımızda olan münasibətlər haqqında media mütəxəssisi Rövşən Əliyevə müzakirə açdım, onu da müzakirəyə dəvət etdim. AXCP-nin qurultayı çox maraqlı ictimai-siyasi hadisə idi. Alternativ namizəd var idi, 20-dən çox çəkiliş, reportyorlar var idi. Amma çox təəssüf ki, oradakı proseslər, çıxışçılar, onların tezisləri dəqiq müzakirə edilmədi. Bunlar hamısı müzakirə olunsaydı, təhlilçilər bunu diqqətlə təhlil etsəydi, məsələyə professional şəkildə baxsaydılar, o zaman görərdilər ki, mən kiminsə təlimatı ilə oyun oynamıram. Diqqətlə baxılsa, kiminsə təlimatı ilə oyun oynamağımla bağlı iddialar, müzakirələr ironiya ilə qarşılanardı. Zatən ironiyaya layiqdir. Amma ictimaiyyət zəruri olan bəzi məsələləri izlədi. İctimaiyyət ancaq şayiələrə və faktları gözdən salmağa hesablanmış kompromatları izlədi, təəssüflənirəm. Çıxışları, oradakı münasibətləri, yanaşmanı, mənim çıxışımı təhlil etsələr, bu iddianın uğursuz olduğu ortaya çıxar".

❑ **Röya RƏFİYEVA**

# Şərifin şedevri



**Samir SARI**

**Bu ölkədə bir Şərif Ağayar var. Yazıçıdır. Roman, esse, hekayə yazır. Çap olunmuş xeyli yazısı var. Şərif laçınlıdır, kürd oğludur, məcburi köçkündür, yeniyetmə yaşlarında kənd-kəsəyindən, el-obasından didərgin düşüb, bir müddət Qarabağın aran düzündə məşəqqətli köçkün həyatı yaşayıb, nəhayət, özünə ədəbiyyatda yuva qurub.**

Bilmirəm Şərif kürdcə bir cümlə qurub danışa bilirmi, bilmirmi, amma Azərbaycan türkcəsində olduqca səlis, rəvan, gözəl cümlələr qurur.

Bir dəfə balaca bir hekayə yazmışdı, 3-4 cümləlik bir hekayəydi. Söhbət rayondan rayona köçən köçkün ailəsinin hər dəfə ev əşyalarını maşına yükləməsindən gedirdi. Şərifin o balaca hekayəsi belə qurtarırdı ki, ailə hər dəfə əşyaları yük maşınına yükləyəndə birinci pişik qaçıb kuzova tullanırmış, o pişik ağlıyla bilirmiş ki, yenə köç dəmidir.

Kövrək qələmi var Şərifin. Özü də kövrək adamdır. Bir dəfə sosial şəbəkədə yazışırdıq, söhbət Murad adlı bir qələm yoldaşından düşmüşdü. Şərif ondan xeyli lətifə danışdı, gülüş işarələri qoya-qoya "gülüşdük". Üstündən heç 2 dəqiqə keçmədi, o, qələm yoldaşıyla bağlı bir kədərli detalı xatırlatdı və hiss etdim ki, o başda kövrəlib. O, duyğusal olduğu qədər də ürəkli və iradəli bir ədibdir.

Bugünlərdə onun "Şəkil" adlı bir hekayəsini oxudum. Oxumayanlara tövsiyə edirəm, oxusunlar. Gerçək bir şedevrdir.

Bəlkə də o hekayəni Stefan Sveyq, Çingiz Aytmatov, Con Steynbek, Qabriel Qarsia Markes kimi dahilər yazmış olsaydılar, indi o dünya ədəbiyyatının incisi sayılırdı.

"Şəkil" hekayəsi ədəbi hadisədir, dünyanın ən öndə gedən ədəbi jurnallarının səhifələrinə layiqdir. Sadəcə, tərcümə edib dərc etdirən lazımdır.

Bu hekayədə ağlaşma-şivən, süni duyğusallıq, oxucunu qəsdən kövrəldib ağlatmağa cəhd yoxdur, əvəzində məsum bir kövrəklik, yovşan iyi kimi xəfif acısı olan nisgil, kəmturş bir həyat hekayəti var.

Şərif bu hekayədə özündən, öz uşaqlıq və yeniyetməliyindən, ahıl yaşında gözünün nurunu itirmiş və oğlunun xiffətini çəkən babasından, müharibədə itkin düşmüş əmisindən, qardaşını axtarıb tapa bilməyən biçarə atasından, köçkünlük həyatından yazıb.

Sözlə ifadə olunası deyil, gərək adam o hekayəni özü oxusun, onun içinə girib yaşasın.

Bəlkə o hekayə söz, ədəbiyyat adamı olmayan şəxslərə təsir etməz, amma oyaq vicdanlı insanların içini mütləq titrədəcək. Çox sevdiyi oğluna görə ağlaya-ağlaya gözünün nurunu itirmiş adamın onsuz da heç bir işə yaramayan eynəyini gözündən çıxarmaması, üstəlik, hər gün sildirməsi kimi bir epizod var hekayədə.

Bu hekayəni oxuyanda onun hansı böyük ədiblərin hansı əsərini xatırlatdığını duymağa çalışdım. Alınmadı. Adını saydığım və saymadığım dühaların heç biri Ağcabədinin yulğunlu, susuz, ilan mələyən çöllərində çadırda, çovustanda yaşamayıblar axı, onların qələmi bu mənzərəni təsvir etməkdə aciz qalardı.

Sosial şəbəkədə kimsə bu hekayəni Əfqanıstan yazıçısı Xalid Hüseyninin yazdıqlarıyla müqayisə etmişdi. Bax, bu müəyyən mənada düz gələ bilər. Xalid Hüseyni öz xalqının faciəsini dünyaya duyuran əsərlər yazır və artıq dünya şöhrəti qazanıb. Şərif isə öz qüdrətli qələmi ilə öz el-obasının faciəsini öz xalqına güc-bəla çatdıra bilir.

Ancaq Şərifin Azərbaycan şöhrəti belə yoxdur, bizdə onu olsa-olsa, laçınlılar, bir də yazı-pozu adamları tanıyır. Onların da bir yarısı dodaq büzür, bir yarısı söz qoşur, bir yarısı yazdıqlarına biganədir, bir yarısı...

Şərif ingiliscə hekayə, roman yaza bilsəydi, dünya miqyasına çıxardı. Rusca yazanlarımız postsovet məkanında şöhrət qazanıblar, amma ingiliscə yazanımız yoxdur.

Bəzən orda-burda giley dolu qeydlər oxuyuram ki, bizdə istedadlı yazıçı yoxdur, oxumağa yaxşı əsər yoxdur. Havayı söhbətdir. Yaxşı yazıçılar da var, yaxşı əsərlər də bir ucdan yazılır. Bizdə yaxşı oxucu çox deyil. Çox azdır.

Onlar vicdanlı əsərlər yazırlar. Əsərlərində vicdan obrazı olur. Elə Şərifin "Şəkil" hekayəsini də oxunaqlı edən həmin vicdandır. Bu hekayə babasının şəklini divardan endirib gözlərini pərgar iynəsi ilə oyan, böyüyəndən sonra onun kor olmasında öz hərəkətinin mistik bir rolu olduğunu hiss edən və əzab çəkən oğlanın vicdanından bəhs edir.



Ziya Məmmədov

# Ziya Məmmədov italyan podratçını necə müflis edib...

## Nəqliyyat nazirinin əcnəbi iş adamına qarşı davranışları xarici investorları Azərbaycana gəlməkdən yayındıra bilər; **Marko Di Giokomo:** “Heç bir günahım olmadan şantaja boyun əyməli oldum”

**Azərbaycanda yol-infrastruktur layihələrində uzun müddət podratçı olmuş İtaliya şirkəti, Vergilər Nazirliyinə külli miqdarda vergi borcu yaranan “İmpresa S.p.A” rəsmən müflis olub. Şirkətin Azərbaycandakı layihə meneceri isə İnterpolun axtarışındadır və özünün dediyi kimi, heç bir günahı olmadığı halda “qurbanlıq quzu”ya çevrilib.**

Virtualaz.org saytı xəbər verir ki, bu əhvalat haqda İtaliyanın “La Reppublica” qəzeti yazır. Əhvalatda “İmpresa S.p.A” şirkətinin Azərbaycandakı layihə meneceri Marko Di Giokomonun başına gələnlərdən bəhs edilir. Qəzet hazırda İnterpolun axtarışında olan bu italiyalı inşaat mühəndisinin başına gələnləri, onun Azərbaycan hökumətinə və İnterpola qarşı apardığı mübarizəni Kafkanın romanlarının süjeti ilə müqayisə edir

1975-ci ildə anadan olmuş italiyalı mühəndis Azərbaycanda işlədiyi 2012-2013-cü illər ərzində vergidən yayınmaqda ittiham olunur. O, Asiya İnkişaf Bankının krediti hesabına maliyyələşdirilən, Nəqliyyat Nazirliyinin sifarişi ilə yol-nəqliyyat infrastrukturu layihələrində podratçı kimi iştirak edən şirkətin Azərbaycan təmsilçisi olmayıb. Özünün dediyi kimi, konkret texniki vərdişlərə malik sadə əməkdaş işləyib.

Buna baxmayaraq, şirkət müflis elan ediləndən sonra Azərbaycanın Vergilər Nazirliyi şirkətin vergi borcunu ondan tələb etməyə başlayıb.

Xatırladaq ki, bu yaxınlarda Vergilər Nazirliyi vergidən yayınan bir sıra iri şirkətlərin adlarını açıqlayıb. Onların arasında “İmpresa S.p.A” şirkətinin Azərbaycan nümayəndəliyi də yer alırdı.

**“Mən şirkətin Azərbaycandakı qanuni nümayəndəsi olmamışam. "İmpresa S.p.A" şirkəti vergidən yayınmada ittiham edilir. Mən maliyyə məsələlərində hər hansı rola malik olmamışam, sadə əməkdaş idim. Buna baxmayaraq, onlar qəzəblərini məndən çıxırlar, qurbanlıq quzuya çevrilmişəm"** - deyə adını İnterpolun siyahısından çıxarmaq üçün mübarizə aparan Marko Di Giokomo şikayətlənir.

O bildirir ki, İtaliya Xarici İşlər Nazirliyindən Azərbaycan hökumətinə təsir göstərməyi və adının “səhvən daxil edildiyi” İnterpoldan çıxarılmasına nail olmağı xahiş edib. Lakin nazirlik onun məsələsinə laqeyd yanaşır.

İtaliyalı mühəndis 2013-cü ilin iyun ayında Azərbaycanda işini qurtarıb və “İmpresa S.p.A” şirkətinin Oman sultanlığındakı layihəsində işləməyə göndərilib. Ancaq orada cəmi bir ay qala bilib.

2013-cü il, iyunun 19-da Markonun ünvanına Azərbaycan məhkəməsinə gəlmək barədə sorğu daxil olub. Sorğuda deyilirdi ki, Marko vergidən yayınmaqda ittiham olunur.

2013-cü il, iyulun 18-də ikinci sorğu daxil olur və Marko məhkəməyə gəlmədiyi üçün daha sonra onun barəsində beynəlxalq axtarış elan edilir.






2013-cü ilin dekabrında Marko Azərbaycanda ona qarşı cinayət işi qaldırıldığını öyrənir və İtaliya XİN-ə gedərək bu haqda məlumat verir.

2014-cü ilin yanvarında şirkət Markonu Eritreyaya təyin edir, ancaq mühəndis tezliklə şirkətdəki işindən istefa verir və “vəziyyətini aydınlaşdırmaq üçün” İtaliyaya qayıtmağı qərara alır. Çünki o, aeroportdaca həbs olunmaqdan qorxurdu.

Nəhayət, 2014-cü ilin avqustunda İtaliya XİN ona cavab verir. XİN bildirir ki, “İmpresa S.p.A” şirkəti Azərbaycandakı vergi borcunu ödəyəcək və nəticədə Markoya qarşı ittiham ləğv ediləcək. Buna baxmayaraq, onun adı hələ də İnterpolun siyahısındadır.

Hazırda “İmpresa S.p.A” şirkətinin Azərbaycan nümayəndəliyinin müflis olma prosedura başa çatmaq üzrədir və şirkət ləğv olunma mərhələsindədir.

Şirkət Vergilər Nazirliyinə 700 min avro ödəməyə razılaşıb. Marko Di Giokomo isə Azərbaycan hakimiyyətinə “törətdiyi əməldən peşman olduğunu” bildirən və vergi borcunun ödənilməsinə dair razılığı nəzərə alaraq onun barəsində qaldırılmış cinayət işini bağlamağı xahiş edən məktub yazıb. Deyir ki, “heç bir günahı olmadığı halda şantaja boyun əyməli olub”.

Habelə avqust ayında İtaliya parlamentinin “5 Star” hərəkatından olan deputatı Daniel del-Qros onun məsələsinə dair parlament sorğusu göndərib. İtaliya xarici işlər naziri Paolo Centiloni bu sorğuya cavab olaraq bildirib ki, XİN, habelə Bakıdakı səfirlik bu məsələni əvvəldən diqqətdə saxlayıb.

Şirkət Vergilər Nazirliyinə borcunu ödəməyə razılaşıb və nazir ümid etdiyini bildirib ki, bu məsələ nizamlanandan sonra mühəndisin adı İnterpoldan çıxarılacaq.

Buna baxmayaraq, italiyalı mühəndisin adı hələ də İnterpolun beynəlxalq axtarışda olan təhlükəli cinayətkarlar siyahısında qalır.

**“Mən uzun müddət xaricdə işləmişəm. İndi bu axtarış üzündən ölkəni tərk edə bilmirəm. Peşəkar mühəndis olsam da ailəmi dolandırmaq üçün kredit götürməyə məcbur olmuşam”** - deyə Marko şikayətlənir.

“İmpresa S.p.A” şirkəti Yevlax-Gəncə, Qazax-Gürcüstan sərhədi, Gəncə -Qazax (kənar yol) yol layihələrinin və digər layihələrin iştirakçısı olub. Bu, Azərbaycanda müfls olan ilk italyan şirkəti deyil. Bundan əvvəl Azərbaycanın yol-infrastruktur layihələrində yer alan “Todini” şirkəti də müflis edilmişdi.

Heç şübhəsiz ki, bütün bu proseslər nəqliyyat naziri Ziya Məmmədovdan xəbərsiz baş verməyib. Məhz onun “krışalığı” səbəbindən əcnəbi adamın başına bu müsibətlər gətirilib. Xarici bir menecerin başına gələnlər Azərbaycana maraq göstərən xarici iş adamlarını, investorları da bu fikirdən yayındıra bilər.

Hər bir halda, bu hərəkətləri ilə NN rəhbərliyi Azərbaycanın imicinə zərbə vurub.

# Partiya liderlərinin YAP-dan olan rəqibləri...

## Onların əksəriyyətinin tanınmayan şəxslər olması suallar yaradıb

**Seçki kampaniyasının namizədlərin irəli sürülməsi, imzatoplama mərhələsi bu gün başa çatır. Tanınmış müxalifət liderlərinin və partiya sədrlərinin bəzilərinin namizədliyi artıq rəsmən qeydə alınsa da əksəriyyəti ilə bağlı DSK-larda hələ son qərar verilməyib. Lakin onların hakim Yeni Azərbaycan Partiyasından olan rəqibləri qeydə alınıblar.**

Milli Strateji Düşüncə Mərkəzinin sədri İsa Qəmbərin seçkidə YAP-dan olan rəqibi Bayram Aslanovdur. Siyasət meydanında adı heç kimə tanış olmayan Bayram Aslanov gəncdir və hakimiyyətin onu sadəcə “dejurnu namizəd” olaraq irəli sürdüyü, əslində 15-saylı Yasamal seçki dairəsindən hakimiyyətin deputat mandatını hazırkı deputat Ülvi Quliyevə verəcəyi iddia olunur.

Müsavat Partiyasının başqanı Arif Hacılının namizədliyini verdiyi 33 saylı Xətai 1-ci seçki dairəsindən YAP hazırkı deputat Hüseynbala Mirələmovun namizədliyini irəli sürüb.

Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn doğulduğu Sabirabad rayonundan-63 saylı dairədən namizəddir. YAP bu dəfə Pənah Hüseynin qarşısına Quliyev Elçin Bəybala oğlu adlı şəxsi çıxarıb.

Ümid Partiyasının sədri, deputat İqbal Ağazadənin namizəd olduğu 35 saylı Xətai üçüncü seçki dairəsindən isə YAP-ın namizədi Ağrılı Aliyə Reyman qızıdır. Onun YAP-ın Mərkəzi Aparatında çalışdığı deyilir.



Azərbaycan Milli İstiqlal Partiyasının sədri Yusif Bağırzadə Gəncə şəhərindəki 38 saylı seçki dairəsindən namizədliyini irəli sürüb. YAP bu dairədən Gəncə Şəhər İcra Hakimiyyəti başçısının 1-ci müavini Naqif Həmzəyevin namizədliyini irəli sürüb.

Azərbaycan Milliyyətçi Demokrat Partiyasının sədri İsgəndər Həmidovun 123 saylı Kəlbəcər seçki dairəsindən Müsavat Partiyasının siyahısı ilə namizədliyi irəli sürülüb. YAP-ın bu dairədə namizədi indiki deputat, “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Cavid Qurbanovdur.

43 saylı Sumqayıt seçki dairəsindən namizədliyi “Azadlıq 2015" seçki bloku tərəfindən irəli sürülən KXCP sədri Mirmahmud Mirəlioğlunun seçkilərdə YAP-çı rəqibi hazırkı deputat Muxtar Babayevdir.

Azadlıq Partiyasının sədri Əhməd Oruc 18 saylı Nərimanov-Nizami seçki dairəsindən namizəddir. YAP-ın siyahısında da bu dairədən İsmayılov İsmayıl Mübariz oğlunun namizədliyi irəli sürülüb.

Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev də İsa Qəmbərin namizəd olduğu 15 saylı Yasamal seçki dairəsindən namizəddir. Bu isə o deməkdir ki, onun da YAP-dan rəqibi Bayram Aslanovdur.

Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəylinin namizəd olduğu 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsindən YAP Sadıqov Etibar Sadıq oğlunun namizədliyini verib.

Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev 9 saylı Binəqədi seçki dairəsindən namizəddir. E.Musayevə qarşı YAP-dan namizədi Qafarov Kəmaləddin Nəsrəddin oğludur.

Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə hazırda deputatı olduğu 22 saylı Nəsimi ikinci seçki dairəsində hakim partiyanın namizədi Rahib Hacıyevlə mübarizə aparacaq.

26 saylı Sabunçu birinci seçki dairəsindən namizədliyini verən Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafanın YAP-dan rəqibi Kamran Qədirovdur.

Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev hakim partiyanın namizədi Zərnişan Abidova ilə 31 saylı Suraxanı ikinci seçki dairəsində rəqibdir.

Bu siyahıya diqqət etdikdə tanınmış siyasi liderlərin, siyasi partiyaların rəhbərlərinin YAP-dan olan rəqiblərinin 90 faizinin Azərbaycan ictimaiyyəti arasında tanınmayan, indiyə qədər mediaya adları bəlli olmayan, siyasi fəaliyyətləri ilə heç vaxt gündəmdə olmayan şəxslər olduğu ortaya çıxır. Hakim partiyanın nədən belə bir taktikanı seçdiyi isə başqa bir təhlil üçün mövzudur.

**Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 216 (6244) 1 oktyabr 2015

**BMT Baş Məclisinin 70-ci yubiley sessiyası çərçivəsində ABŞ və Rusiya prezidentləri arasında baş tutan görüş və onun nəticələri beynəlxalq gündəmin əsas müzakirə mövzularından biri olaraq qalır. Bu da təsadüfi deyil, çünki hazırda dünya faktiki surətdə 3-sü Cahan savaşı qarşısındadır və bu iki supergücün bir-birinə münasibəti və davranışından çox şey asılıdır.**



# ABŞ və Rusiya arasında "Suriya-Çin səddi"

## Qərb mətbuatı Obama və Putinin anlaşa bilməməsinin səbəbləri haqda; "Moskva və Vaşinqton arasında yeni rəqabət erası başlayıb"; "Bu günün qalibi Putindir, lakin sonra o, çox baha qiymət ödəyəcək..."

Söhbət öncəliklə Yaxın Şərqdəki *(Suriya, İraq, İŞİD)* proseslərə və terrorizmlə mübarizəyə yanaşmadan və uzlaşmadırılmış addımlardan gedir. Lakin hələ ki bu istiqamətdə kardinal dönüş gözə dəymir.

Qərb mediası və analitikləri də görüşdən sonrakı durumu şərh və analiz etməkdə davam edirlər. Ortaq qənaət belədir ki, Rusiyanın Putinə Obama ilə görüş şansı verən "Suriya hücumu" iki dövlət arasında yeni rəqabət erasının başlanmasına gətirə bilər.

***

"Barak Obama və Vladimir Putinin BMT-də bir-birini ittiham edən çıxışlarının və tet-a-tet görüşlərinin yekununa əsasən söyləmək olar ki, Yaxın Şərq və ya Ukrayna böhranları ilə bağlı aradakı uçurumun kiçildiyi haqda hələlik heç bir siqnal yoxdur. Lakin Putin sübut elədi ki, Rusiya regional dövlət deyil. Ola bilsin onun əsas hədəflərindın biri də elə bu idi" - yazır Qərb KİV-ləri.

"Bazar ertəsi Obama və Putin BMT tribunasından çıxış edərək beynəlxalq əməkdaşlığın vacibliyini qeyd elədilər. Lakin bu təlimatlar Suriya böhranının xarakterinə baxışlarda özünü göstərən dərin fikir ayrılıqları ilə sarsılmaqdadır" - "The New York Times" qəzetinin redaksiya məqaləsində deyilir.

**Qəzet təhlilini davam edərək yazır:** "Putinin Suriyada artan aqressivliyi Rusiya və ABŞ arasında yeni rəqabət erasının başlanmasına və Moskvanın Yaxın Şərqdəki rolunun genişlənməsinə gətirə bilər. Obama da, Putin də İŞİD-i ciddi təhlükə sayır, ancaq yerdə qalan məsələlərdə onların mövqeləri radikal surətdə fərqlənir. Nəzəri olaraq siyasi kompromis üçün onların əsası var. Lakin tezliklə nə Vaşinqtonla Moskva, nə də Əsəd hökuməti ilə müxalifət silahlılar arasında kompromis əldə olunması gözlənilmir".

***

**"The Washington Post"un redaksiya məqaləsi də bu xüsusda diqqət çəkir.** "Qana bulaşmış Suriya diktatoruna kömək olaraq cəsarətlə öz qoşunlarını və təyyarələrini bu ölkəyə göndərən Rusiya prezidenti bazar ertəsi dünya ölkələrini İŞİD-i və Yaxın Şərqdəki oxşar qruplaşmaları darmadağın eləmək üçün yaradacağı geniş koalisiyaya qoşulmağa çağırıb. Bəyan edib ki, bu koalisiya antihitler koalisiyası kimi demokratiyanı, diktaturanı və teokratiyanı birləşdirməlidir. Ancaq qoy ölkələr bu bayatılara qulaq asmasın. Məsələ ondadır ki, Putin belə bir faktın üstündən sükutla keçib ki, ABŞ və müttəfiqləri Avropada təkcə faşizmə qarşı yox, həm də demokratiya uğrunda döyüşürdülər" - qeyd edir nəşr.

Lakin qəzetin analitiklərinə görə, Barak Obamanın öz konsepsiyasını irəli aparmaq və ya Putinə qarşı durmaq üçün heç bir strategiyası yoxdur.

***

**"The Wall Street Journal"ın redaksiya məqaləsində isə deyilir:** "Suriyada Putin və Tehran Əfqanıstandan tutmuş, Aralıq dənizinin şərqindəki "nüfuz qövsü" yaradır. Onlar Obamanın bu regiondan çıxmaq istəyi üzərində oynayaraq Amerikanın nüfuzunu zəiflətməyə çalışırlar. Obama BMT-də bəyan elədi ki, Suriyada müharibəyə qədərki status-kvoya qayıdış mümkün deyil və hakimiyyətin Əsəddən yeni liderə idarə olunan şəkildə verilməsi lazımdır. Ancaq Obama buna necə nail olmağa hazırlaşır? Putin isə hər gün Suriyada "baş vermiş faktlar" yaradır - ora hər gün daha çox aviasiya və tank atmaqla".

**Nəşr ardınca qeyd edir:** "Dövlət katibi Con Kerri Suriyadakı situasiya üzrə yeni bir dialoq təşkil etməyə ümidlidir. Fəqət, Bəşər Əsədin əlində kompromisə getmək üçün heç vaxt olmadığı kimi indi daha az əsas var, çünki bilir ki: Rusiya və İran "Hizbullah"ın köməyi ilə Suriyada hansısa "ələvi protektorat" yaradacaq. Böyük ehtimalla, yekunda Barak Obama Rusiyanın Suriyada mövcudluğu ilə və Əsədin, yaxud Kreml və Tehranın digər bir qulluqçusunun hakimiyyətinin qalması ilə barışacaq. Hərçənd Obama yenə də inkar edir ki, onun Amerikanı geri çəkmək siyasəti vakuum yaradıb və bu vakuumu da əclaflar doldurmaqddar".

***

**"Obama, Putin, Ruhani, Si Tsinpin - bu gün hər biri öz yolu ilə gedir" - bunu isə "Avrasiya" analitik-konsaltinq mərkəzinin təsisçisi Yan Bremmer "Corriere della Sera" nəşrinə müsahibəsində deyib.** "Bu gün qalib Putindir. Bu - onun siyasi triumfudur. Lakin sonra o, çox baha qiymət ödəyəcək, çünki rus əsgərlərinin meyitləri qayıtmağa başlayacaq, Əsədin qanlı əks hücumları isə dünyanın dörd bir yerindən İŞİD tərəfdə döyüşmək istəyən könüllülərin cəlb olunması işini asanlaşdıracaq" - deyib ekspert.



Bu arada ABŞ-ın Bəşər Əsədin labüd istefası tələbindən imtina etdiyi və bu ölkədə hakimiyyətin "nizamlı" şəkildə ötürülməsində təkid elədiyi bəlli olub. Bu barədə dövlət katibi Con Kerri CNN-ə müsahibəsində deyib.

**Kerrinin sözlərinə görə, Suriya konfliktinin həlli ölkə sünnilərini siyasi həyata cəlb eləmədən mümkün deyil və bu da "müəyyən zaman" alacaq.** "Əsədin təcili istefası Suriyada vətəndaş institutlarının dağılmasına və çöküşünə gətirə bilər. Odur ki, nizamlı bir keçid olmalıdır ki, qisasla bağlı, həyata görə qorxu hissi olmasın" - qeyd edib Kerri və etiraf edib ki, Birləşmiş Ştatların Suriyada hakimiyyət dəyişikliyi məsələsinə əvvəlki yanaşması işlək olmayıb.

Rusiyanın Suriya konfliktinin həllində iştirakını mümkün sayan Con Kerri əlavə edib ki, əgər Moskva Əsədin ələvi hökumətini dəstəkləməkdə davam eləsə, o zaman onu əhalisinin əksəriyyəti sünni olan Yaxın Şərq ölkələri ilə problemlər gözləyir. "Bu da o deməkdir ki, Rusiya da cihadçıların hədəfinə çevrilə bilər" - deyə xəbərdarlıq edib ABŞ xarici siyasət idarəsinin başçısı.

❑ **Siyasət şöbəsi**

# Putinin özündən soruşan olsaydı...



**Hüseynbala SƏLİMOV**

**Rusiya prezidentinin "tarixi çıxışı" axır ki, hamıya çatdı... Amma bir məsələnin cavabı verilmədi - böyük dövlətlərə xitabən "Heç bilirsinizimi nə edirsiniz?" soruşan prezidentdən heç kim soruşmadı ki, bəs sən heç özün bilirsənmi nələr etmisən?..**

Bugünlərdə oxudum ki, Rusiyada yoxsulluq həddi doqquz il bundan əvvəlki həddə çatıb. Təsəvvür edin, bu, cəmi bircə ilin nəticəsidir - Rusiyaya qarşı sanksiyaların tətbiq olunmasından heç bir il keçməyib...

Təbii ki, Rusiya siyasətçiləri və diplomatları bir tərəfə, hətta yazarlar və təhlilçilər də nikbin görünməyə çalışırlar. Amma alınırmı? Güman etmirik və Rusiya mətbuatında təlaş dolu yazılara getdikcə daha çox rast gəlmək olur...

Putin özü isə dördüncü prezidentlik müddəti haqqında düşünür. Bəlkə də ona elə gəlir ki, ölkəsinə həqiqətən də sülh və firavanlıq gətirib. Hətta belə olsaydı biz bunu yenə də təlaşla qeyd edərdik...

Ona görə ki, Rusiya prezidenti, xüsusən də təhlilçilər hakimiyyətlərlə bağlı M.Veberin təsnifatını bilir. Bu təsnifata görə isə Rusiyada xarizmatik hakimiyyət hökm sürür. Bu, o deməkdir ki, dövlət institutları yetərincə inkişaf etməyib, siyasi sistem institutlaşmayıb...

Deyə bilərsiniz ki, əgər ölkəni D.Medvedyev kimi zəif bir siyasətçi də idarə edə bildisə, bu, bizim indi dediklərimizi təkzib etmirmi?

Yox, etmir. Ona görə ki, ölkəni Medvedyev yox, Putin-Medvedyev tandemi idarə edirdi. Bu tandemin ağırlıq mərkəzi isə daha çox Putinin üzərinə düşür və güman edirik ki, bununla çoxu razılaşar...

Bəlkə də kimsə soruşa bilər ki, bu adam Rusiyadan niyə belə çox yazır, bizim öz dərdimiz yoxdurmu?..

Rusiyadan ona görə çox yazıram ki, bu ölkədən böyük siyasət daha yaxın görünür. Dərdlərimizə gəldikdə isə, onların da çoxunu bizə Rusiya sırıyıb və bu ölkəni daim diqqətdə saxlamağımız da daha çox həmin dərdlərdən imkan qədər tez qurtulmaq istəyimizlə bağlıdır...

Bəli, Putin hamıdan soruşdu ki, heç bilirsinizmi, nə edirsiniz? Mən onu dinləyənləri də, necə deyərlər, mələk-misal hesab etmirəm. Amma görən bu adam heç fərqindədirmi ki, dünyanın gözündə "ekzotik lider"ə çevrilib?..

"Ekzotik lider" deyəndə mən daha çox Kim Çen İr, Çaves kimi, İranın keçmiş prezidenti Əhmədinejad kimi siyasətçiləri nəzərdə tuturam... Bəli, onlar qeyri-standart həyat tərzi keçirən, dünyada azacıq darıxan adamlara maraqlı görünür...

O ki qaldı nə etməyə... Kimsə Şərqin tənbəl sükutunu pozmağa cəhd etməldir.

Bəli, Putin kimi siyasətçilər düşünür ki, elə belə də yaxşıdır və qoca Şərq nə qədər mürgüləsə, dünya üçün daha məqbuldur. Amma belədirmi?..

Adi bir misal çəkəcəm. Neçə gündür ki, Həcc ziyarətində həlak olmuş adamlar haqda bəyanatlar, xəbərlər səngimək bilmir. Kimi onların sayını 700, kimi də 4700 nəfər deyir...

Ən başlıcası isə hamı belə bir faciənin yaranmasının səbəbi kimi kral oğlunun müqəddəs ziyarətgahı elə kral oğlu kimi ziyarət etməsini görür... Deyilənlərə görə, əgər belə olmasaydı bu böyük faciə də baş verməzdi...

Nə demək olar? Bu faciə göstərir ki, Şərqdə despotlar bir həqiqəti unudublar: onlar Allahın qarşısında kral və yaxud kral oğlu deyil, adi bəndələrdilər! Ona görə də krallar da Allahın qarşısında hamı kimi ibadət edə bilərdilər...

Təbii ki, bir şərqli kimi mən də Şərq insanlarının demokratiya potensialını bir o qədər də yüksək qiymətləndirmirəm. Həm də bir məsələni qeyd etməyə və fkirimi bununla çatdırmağa cəhd edirəm. ABŞ-la Rusiyanın Əfqanıstanda hərbi-siyasi çəkişməsindən taliban yarandı. İndi də ABŞ-la Yaxın Şərq despotlarının da çəkişməsindən İŞİD yaranıb və güman edirəm ki, elə taliban kimi İŞİD-i də yaxın müddətdə ram etmək mümkün olmayacaq. Ona görə ki, İŞİD də Taliban kimi "bir qrup adam" deyil...

Sovet stereotipləri bəzən bizə milli hadisələrin miqyasını görməyə mane olur. Bəli, sovetlər vaxtı adət etmişdik ki, bir şey baş verəndə, "Əşşi, bu xalq deyil! Bir qrup adamdır..." deyək. İndi də bu stereotiplərlə düşünürük...

Bu kontekstdə Putinlə razılaşmaq və elə onun kimi "Siz nə etdiyinizi bilirsinizmi?" deyə soruşmaq olar...

Ən böyük səhv mənə elə gəlir ki, onadır ki, Qərbdə elə düşünürlər ki, despotik rejim devrilən kimi demokratiya bərqərar olacaq. Bu baxış bəlkə də Şərqi Avropa üçün doğru idi. Amma Şərq daha incə məsələdir və onunla bir qədər incə işləmək lazım gəlir...



# Qaçqınların küçə işıqları

Zamin HACI
zaminhaci@gmail.com

**Yapistlər Suriya qaçqınları mövzusunda demaqogiya ilə məşğul olub, Avropanı, demokratik Qərbi xeyli tənqid elədilər. Dedilər gəlsinlər bizdən qaçqınlara dövlət qayğısını öyrənsinlər. Əlbəttə, qaçqın və məcburi köçkünləri 20 ilə yaxın müddətdə qışda palçıqlı, yayda ilan mələyən səhra düşərgələrində çürütməkləri yada düşmədi. Elə indinin özündə xeyli qaçqın bu cür pis durumda yaşamaqdadır. Neft pullarının sel kimi gələn vaxtında bir neçə evlər, dəbdəbəli və tragikomik "Qayıdış" tipli adlar daşıyan şəhərciklər salmaqla iş düzəlmədi ki? Misal üçün, Müşfiqabad tərəfdə məcburi köçkünlərə tikilən evlər biyabanın ortasındadır. Adam ərazidən keçəndə ürəyi sıxılır, gəl gör orda yaşayasan. İş yerləri yox, adi elementar sosial şərait yox. Yeri gəlmişkən, Füzuli və Beyləqan tərəfdə salınan yeni qaçqın şəhərciklərində yaşayan adamlar işsizlikdən beziblər.**

Ancaq biz qaçqın-köçkünlərimizin adından niyə danışaq? Onlar öz hallarından məmnundursa, bizim nə işimizə qalıb? Lap "Yeni Müsavat"da təzəlikcə jurnalist Əli Raisin yazdığı fotoreportajdakı işsiz adamın durumudur. Təsəvvür edin, adamın 47 yaşı var, zibillikdən şüşə qab yığmaqla dolanır, rayondakı ailəsinin üzünə həsrətdir, amma hökumətdən razılıq eləmişdi! Elə bil zibilliyi bunun əlindən alacaqlar. (Nə biləsən...) Məşhur müdrik fikirdə deyilən kimi, "Azadlığın ən böyük düşməni öz halından məmnun kölələrdir".

Əlbəttə, adda-budda narazılar da vardır, biz gərək onları tutdurub bəzi jurnalistlər kimi döyək. *(Şanlı polis qüvvələrimiz sayəsində yaxın aylarda jurnalist canlısı Azərbaycanda Qırmızı Kitaba düşəcəkdir).* Elə onlardan bir qrupu İmişlidən mənə şikayət göndəribdir, görün nə deyirlər: "Biz burada, 2012-ci ildə dövlət proqramı ilə salınan "Yeni Bəhrəmtəpə" qəsəbəsində yaşayırıq. 1 və 2 saylı şəhərciklərdə ümumən 2500-ə yaxın insan yaşayır. Əsas problemlərimizdən biri küçə işıqlarının sönməsidir. Qabaqlar işıq var idi, amma hardasa 1 ilə yaxındır verilmir. Qaranlıqdan çox əziyyət çəkirik, bəzi sakinləri sahibsiz itlər tutmuşdur. Dəfələrlə icra hakimiyyətinə, başqa qurumlara müraciət etmişik, amma deyirlər gərək Qaçqınkom hesaba pul köçürtsün, işıq o zaman verilər. Bilmirik dərdimizi kimə deyək. Hörmətlə, şəhərcik sakinlərindən qaçqın Filankəs, köçkün Behmənkəs və sairə".

Doğrudan da ciddi problemdir. Misal üçün, Bakıda da neft pulu azalandan bir çox küçə işıqları yanmır, amma qaçqın şəhərciyinin qaranlıqda qalması daha qlobal problemdir. Bəs biz suriyalı qaçqınlara necə yanıq verərik? Angela Merkeli AzTV-də kimə göstərib qınayarıq?

Üstəlik, məndə dəqiq məlumat var ki, düşərgənin küçə işıqları yanmadığından bəzi adamlar gecə küçəyə çıxa bilmir, nəticədə AzTV-nin səyyar kameralarına *(hər yeri gəzirlər, diqqətli olun, hər an sizi də göstərərlər)* "AXC-Müsavat cütlüyünün hakimiyyətdə olduğu 90 ildə küçəyə çıxa bilmirdik, sağ olsun yapçılar, cəmi 9 aydır hakimiyyətdədirlər, lakin gecə-gündüz küçədən yığışmırıq" deməkdə çətinlik çəkir. Yanlış anlaşılmasın, "Yeni Bəhrəmtəpə" sakinləri başqa uca millətimiz kimi iqtidarı tam dəstəkləyir, ətrafında neçə sot boş yer varsa orada sıx birləşməyə daima hazırdır, ancaq küçə işıqlarının yanmaması onlara bir az çətinlik yaradır. Şair demişkən, "Gecə qəfil Günəş doğsa, biz də bilerik kim kimin evindən çıxır".

Kosmosdakı peykimizdən çəkilən şəkillərdə həmin hissənin qapqara görünməsi də düzgün deyildir, çünki qaçqınlara yaratdığımız ideal şəraitə bütün kainat şahid olmalıdır, bəlkə marsiançıklər də NASA-nın əlindən qaçqın düşsələr - bu yankilər hara getsə ordan camaat qaçırmış - gəlib İmişlidə məskunlaşmaq istəyəcəkdir.

Ümid edirəm, bu yazıdan sonra "Yeni Bəhrəmtəpə" qəsəbəsinin küçə işıqları yanacaqdır. Onsuz başqa nəyəsə ümid eləmirəm.

# Məmmədyarovu əvəzləyəcək kadr tapıldı

**Son zamanlar xarici işlər naziri Elmar Məmmədyarovun fəaliyyəti, xarici siyasət idarəsində təsadüfi şəxslərin diplomatik görəv alması və bu səbəbdən yaranan qalmaqallar hakimiyyət kuluarlarında ciddi müzakirə olunur.**




## "Dişsiz diplomat" gedir: yeni nazir Araz Əzimov ola bilər

### Hakimiyyət mənbələrindən əldə etdiyimiz bilgiyə görə, XİN rəhbəri ilə bağlı qəti qərar artıq verilib; iqtidar "hücum diplomatiyası"nı işə salır; nazir postuna ən real namizəd Qarabağ danışıqlarında prinsipial mövqeyi ilə tanınır...

XİN-də kadr siyasəti və korrupsiya faktları haqda əvvəllər də müxtəlif səpkili informasiyalar yayılırdı, amma Avropa Oyunları ərəfəsi İslam Əməkdaşlıq Təşkilatının Avropa İttifaqı yanında daimi müşahidəçi missiyasının keçmiş rəhbəri Arif Məmmədovla bağlı qalmaqaldan sonra daha bir neçə diplomatın da "qiyam" qaldırması hakimiyyətin ən yüksək düzeyində narahatlıq yaradıb. Baş verənlər hakimiyyətdə o qənaəti möhkəmləndirib ki, E.Məmmədyarov səfirliklərin işinə nəzarət edə bilmir. Səfirliklə bağlı korrupsiya faktlarının etiraf edilməsi, hətta cinayət işi açılması xarici işlər nazirini məsuliyyətdən azad etmir, üstəlik, idarəetmədə ciddi nöqsanlar olduğu barədə xəbərləri təsdiqləyir.

Azərbaycan təkcə düşmən ölkə Ermənistanın deyil, Qərbin də informasiya basqısı altında olduğu bir dönəmdə XİN-də bir-birinin ardınca baş verən qalmaqallar iqtidar bu strukturda təcili dəyişikliklər barədə düşünməyə vadar edir. Ermənistanla informasiya müharibəsi dövründə diplomatların xaricdən siyasi sığınacaq istəməsi ümumilikdə Qarabağ danışıqlarında Azərbaycanın mövqelərini zəifladir. 2004-cü ilin aprelindən xarici siyasət idarəsinə rəhbərlik edən E.Məmmədyarovun Azərbaycanın xarici siyasəti, xüsusən də Dağlıq Qarabağla bağlı beynəlxalq aləmdə fəaliyyəti ciddi suallar doğurur. Yalnız bir faktı qeyd edək ki, müxtəlif ölkələrdən Dağlıq Qarabağa qeyri-qanuni səfərlərin sayı nəzərəçarpacaq dərəcədə artdığı halda, XİN yalnız onların adını "qara siyahı"lara salmaqla işini bitmiş hesab edir. Təsadüfi deyil ki, prezident İlham Əliyev 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunan müşavirədə çox sərt danışıb, XİN-in fəaliyyətini tənqid edib. Prezident bildirib ki, Azərbaycanın xarici siyasəti ölkələrin bizə qarşı münasibətinə adekvat deyil.

İddialara görə, Azərbaycan hakimiyyətinin Qarabağ danışıqlarında ritorikanı daha da sərtləşdirdiyi vaxt-yəni 2013-cü il prezident seçkilərindən sonra E.Məmmədyarovu da dəyişmək planı gündəmdə olub. Plana görə, müdafiə naziri Səfər Əbiyevin Zakir Həsənovla əvəzlənməsi ilə bərabər xarici işlər naziri də görəvdən alınmalı imiş. Yəni Qarabağ danışıqlarında heç bir konstruktiv addım atmayan Ermənistan rəhbərliyinə qarşı həm ordunun gücü, həm də "hücum diplomatiyası" işə düşməli imiş. Göründüyü kimi, məhz Zakir Həsənovun müdafiə naziri təyinatından sonra Ermənistan cəbhə xəttində ağır itkilər verməkdədir və Azərbaycan bu məsələdə tam üstünlüyə malikdir. Təəssüf ki, təcrübəli diplomat və korrupsiyaya bulaşmayan məmur olduğu üçün vəzifəsində saxlanılan E.Məmmədyarov prezidentin ona verdiyi növbəti şansdan Azərbaycanın xeyri üçün istifadə edə, XİN-i "hücum diplomatiyası"na kökləyə bilmədi. Son illər "DQR"-ə qanunsuz səfərlərin artması, qondarma qurum rəhbərliyinin xarici ölkələrə dəvəti də XİN-in xarici siyasət kursunda "dişsiz siyasətinin" nəticəsi hesab olunur.

Azərbaycan iqtidarına Qərb dairələrindən hücumlarda da E. Məmmədyarovun fəaliyyətsizliyinin müəyyən rolu var. Xüsusən siyasət və informasiya texnoloqları belə hesab edirlər ki, nazir Avropa Birliyi ölkələri ilə yaxşı əlaqələr qurmaqda çətinlik çəkir, onun "qoca qitə"yə təyinat alan diplomatlarının bəziləri səriştəsizdirlər. Bütün bunlar onu bir daha təsdiqləyir ki, E.Məmmədyarovun nazir kimi karyerası nöqtələnir. Son günlər onun yorulduğunu hətta efirdən də aydın sezmək mümkündür. Hələ bir müddət əvvəl də belə xəbərlər vardı ki, nazir yorulması səbəbindən özü vəzifədən getmək istəyir.

Hakimiyyət mənbələrindən əldə etdiyimiz bilgiyə görə, E.Məmmədyarovla bağlı qəti qərar artıq verilib. Məlumatı mənbə iddia edir ki, parlament seçkilərindən sonra gözlənilən kadr islahatları məhz xarici işlər nazirinin vəzifədən azad olunacağı ilə başlayacaq. E.Məmmədyarovun BMT-də Azərbaycanın daimi nümayəndəsi təyin ediləcəyi iddia olunur. 2014-cü ildən bu vəzifəni tutan Yaşar Əliyevin XİN-ə müavin gətiriləcəyi söylənilir.

Xəbərlərdə o da iddia olunur ki, hakimiyyət xarici işlər naziri kimi daha çox Araz Əzimovun namizədliyi üzərində dayanıb. Peşəkar diplomat təhsili olmasa da, o uzun illərdir ki, XİN-də işləyir. A.Əzimov 1989-cu ildə Xarici İşlər Nazirliyinin informasiya şöbəsində 2-ci katib, 1990-1991-ci illərdə 1-ci katib, 1991-1992-ci illərdə müdir müavini, 1992-1994-cü illərdə Xarici İşlər Nazirliyinin Beynəlxalq təşkilatlar idarəsinin rəisi olub. 1994-cü ildən isə xarici işlər nazirinin müavinidir.

O, hələ Heydər Əliyevin rəhbərliyi dövründən prezidentin Qarabağ məsələsi üzrə xüsusi səlahiyyətli nümayəndəsidir. Maraqlıdır ki, E.Məmmədyarovdan fərqli olaraq Araz Əzimov Qarabağ məsələsi ilə bağlı daha sərt bəyanatlarla çıxış edir. Ötən ilin mayında o, amerikalı həmsədr Ceyms Uorlikin missiyasına zidd olaraq ermənilərə daha sıx əlaqədə olduğunu, Amerikadakı erməni diasporu ilə yaxınlığını bəyan edərək onun geri çağırılması məsələsini qaldırmışdı. A.Əzimov illərdir ki, Qarabağ danışıqlarında "görünməz" fiqurdur və müzakirə olunan bütün sənədlər onun birbaşa iştirakı ilə hazırlanır. Ekspertlər də "Yeni Müsavat"a bu təyinatın mümkün olduğunu deyiblər. Onların sözlərinə görə, A.Əzimov nazir təyin edilməyə ən real namizəddir və Qarabağ danışıqlarında prinsipial mövqeyi ilə tanınır.

Lakin bu posta digər iddiaçıların da adları çəkilir. Onlardan biri Novruz Məmmədovdur. Azərbaycan Respublikası Prezident Administrasiyası rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri olan cənab Məmmədov bir sıra hallarda ölkə və dünya gündəminə düşən cəsarətli açıqlamaları ilə yadda qalıb.

Siyasət kluarlarında yeni xarici işlər naziri kimi millət vəkili Azay Quliyevin də adı çəkilir. Beynəlxalq məsələlərdə fəallıq göstərən və ermənilərə qarşı informasiya müharibəsinə ciddi töhfələr verən Azay Quliyev 1971-ci il doğumludur. Hakimiyyətdə ciddi dəstəyə malikdir. O cümlədən QHT və media sektorunda nüfuzu var.

Azay Quliyev Almaniya, Böyük Britaniya, Fransa, Türkiyə, Macarıstan, Gürcüstan, Rusiya, Belçika, İsveçrə, Avstriya, Rumıniya, Serbiya və digər ölkələrdə Qarabağ problemi ilə bağlı keçirilən konfranslarda fəal iştirak edib və məruzələr edib. **İngilis, rus və türk dillərini bilir.**

❑ **"Yeni Müsavat"**

Yeni Müsavat
N 216 (6244) 1 oktyabr 2015

# "AXCP bizim təşkilatımızdır"

## İsa Qəmbər: "Azərbaycan hakimiyyəti ölkəni nə Rusiyaya, nə də Qərbə doğru aparır. Hakimiyyət Azərbaycanı sürətlə uçuruma doğru aparır. Qarşıda uçurumdur"

**Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri, Müsavat Partiyasının keçmiş başqanı İsa Qəmbərin "Yeni Müsavat"a müsahibəsinin ikinci hissəsini təqdim edirik.**



(əvvəli ötən sayımızda)

***- İsa bəy, bu dəvətlər, iştiraklar həm də bir həmrəylik ovqatı yaratmaq, umu-küsüləri aradan qaldırmaq şansı deyilmi?***

- Təbii, burada bütün məqamlar var. Ancaq Azərbaycan Xalq Cəbhəsi Partiyası yenə deyirəm ki, zamanında milli-azadlıq hərəkatının rəhbəri Əbülfəz Elçibəyin liderliyində bizim yaratdığımız bir təşkilatdır. AXCP bizim təşkilatımızdır. Bu gün həmin təşkilatın davamçıları bizi qurultaylarına dəvət etsələr də, etməsələr də biz o təşkilatı öz təşkilatımız hesab edirik.

***- Zaman gedir. Siz indi o yaşa gəlmisiniz ki, rəhmətlik Əbülfəz Elçibəy bu yaşlarında Azərbaycan Xalq Cəbhəsi Partiyasına rəhbərlik etməklə yanaşı, bütün müxalifət düşərgəsi üçün bir toparlayıcı funksiyasını da icra edirdi. Problemli, mübahisəli məqamlar olanda ağsaqqal kimi məsələyə qarışır, çox zaman da durumu belə demək mümkünsə, demokratiyanın xeyrinə həll edirdi. Siz artıq Müsavat Partiyasının başqanı deyilsiniz, ancaq Azərbaycan müxalifətinin liderlərindən biri statusunuzu qoruyursunuz. Sizin Əbülfəz Elçibəyin bir zamanlar üstləndiyi missiyanı üzərinizə götürüb, müxalif düşərgədə bir düzən, birlik yaratmaq fikriniz varmı?***

- Hər zamanın öz şərtləri və imkanları, hər siyasətçinin öz üslubu olur. Biz sizin dediyiniz missiyanı indiki mərhələdə birbaşa deyil, nümunə göstərməklə, cəmiyyətə zəruri ideyalar təqdim etməklə həyata keçirməyi daha səmərəli sayırıq. Eyni zamanda siyasi partiyaların hamısına düşünüb daşınmaq, keçdikləri yolu diqqətlə gözdən keçirib, nələri düz, nələri yanlış etdiklərini analiz etmək üçün müddət tanımaq lazımdır. Yəni imkan verilməlidir ki, hər bir partiya öz yolunu dəqiqləşdirsin. Əminəm ki, məqamı yetişəndə Azərbaycanda həqiqətən demokratik dəyişikliklər istəyən bütün qüvvələr - siyasi partiyalar da, media strukturları da, jurnalistlər də, vətəndaş cəmiyyəti təmsilçiləri də bir arada olacaqlar. Və bu birliyin də biz vahid təşkilat kimi deyil, demokratik düşərgə tərəfindən qəbul edilən vahid hədəf uğrunda funksional əməkdaşlıq modeli kimi məqsədəyğun olacağını düşünürük.

**"Hər bir Azərbaycan vətəndaşı işğal altında olan torpaqlarımızın azad edilməsinin nə qədər ləngidiyinin fərqindədir. Hamımız torpaqlarımızın tezliklə işğaldan azad olunmasını istəyirik"**

***- Siz bayaq əsas fəaliyyətinizin Strateji Düşüncə Mərkəzi ilə bağlı olduğunu dediniz. Qurumun gündəliyində nələr var? Regionun, Azərbaycana yaxın coğrafiyanın, bütünlükdə dünyanın gərgin gündəmi ilə bağlı proqnozlarınız nədir?***

- Azərbaycanın da, dünyanın da gündəmində olan bütün köklü məsələləri müzakirə eləməyə çalışırıq. Milli Strateji Düşüncə Mərkəzi fəaliyyətə başlayanda ilk açıq tədbirlərimiz Azərbaycana, bütünlükdə Qafqaza Rusiya təhlükəsi ilə bağlı olmuşdu. O zaman Rusiya təhlükəsi ölkə üçün bəlkə də indiki qədər açıq-aydın görünmürdü. Eyni zamanda hələ dünya Rusiyanın çevrəsindəki ölkələr üçün necə böyük bir təhlükə olduğunu açıq-aydın etiraf etmirdi. Biz bu haqda geniş müzakirələr təşkil etdik, açıq toplantı keçirdik, sənəd hazırladıq, həmin sənədi müzakirələrdən sonra qəbul etdik. Sonrakı tədbirimiz Qarabağ probleminə həsr olunmuşdu. Biz Qarabağ problemi yaranan gündən problemin bugünkü durumuna qədər məsələni ətraflı müzakirə etməyə çalışdıq. Göründüyü kimi, Milli Strateji Düşüncə Mərkəzi əsasən ölkənin köklü məsələlərini müzakirə etməyə çalışır. Eyni zamanda Azərbaycanda daxili vəziyyət o qədər bərbaddır ki, biz ölkənin iç problemlərini də müzakirə etmək məcburiyyətindəyik. Söhbət həm seçki məsələlərindən, həm siyasi məhbuslarla bağlı durumdan, həm vətəndaş cəmiyyətinin problemlərindən, həm media azadlığından gedir.

**"Seçkilərin antidemokratik şəraitdə keçirilməsi, ölkədə bu qədər siyasi məhbusun olması, vətəndaş azadlıqlarının bu dərəcədə məhdudlaşdırılması Azərbaycanın təhlükəsizliyi üçün çox ciddi problemə çevrilib"**

Milli Strateji Düşüncə Mərkəzi olaraq biz bu məsələləri müzakirə etmək məcburiyyətindəyik. Çünki bu problemlərin hamısı Azərbaycanın təhlükəsizliyi üçün gerçək bir təhdidə çevrilib. Seçkilərin antidemokratik şəraitdə keçirilməsi, ölkədə bu qədər siyasi məhbusun olması, vətəndaş azadlıqlarının bu dərəcədə məhdudlaşdırılması Azərbaycanın təhlükəsizliyi üçün çox ciddi problemlər yaradıb. Bu problemlər gündən-günə böyüyür. Beynəlxalq təşkilatların da son dönəmlər ortaya qoyduğu mövqelər məhz bundan xəbər verir. Bütün bu məsələlər Milli Strateji Düşüncə Mərkəzinin gündəmindədir. İş üsulumuz da yaranandan bəri müəyyən olunduğu kimidir - həftədə bir dəfə toplaşırıq və qapalı müzakirələr keçiririk. "Qapalı müzakirə" deyəndə jurnalistlərdə həmin yığıncaqlara xüsusi maraq oyanır. Yəni biz mediasız, açıq, səmimi, ciddi müzakirələrə üstünlük veririk. Ancaq gündəmin konkret məsələsi ilə bağlı hansısa sənəd, yaxud tövsiyə xarakterli paket hazırlanması ehtiyacı yaranırsa, artıq həmin məsələ ilə bağlı baxışımızı cəmiyyətə açıq təqdim etmək mərhələsi gəlirsə, dəyirmi masa, konfrans formatında toplanıb düşüncələrimizi cəmiyyətə təqdim etməyə çalışırıq. Təxminən bu ritmdə çalışmalarımız davam edir. Proqnoza gəldikdə isə, məncə, təkcə MSDM üçün deyil, düşünən, dünyanın gedişini diqqətlə izləyən hər kəsə aydın olmalıdır ki, dünya böyük dəyişim dövrünü yaşayır. Yeni dünya düzəni formalaşır. Bu dövr bir çox ölkələrdə avtoritar rejimlərin çökməsi, köklü demokratik dəyişikliklərin gerçəkləşməsi və bütövlükdə azad dünyanın əhəmiyyətli dərəcədə genişlənməsi ilə yekunlaşacaq. Bu proqnoz Cənubi Qafqaza da aiddir.



**"Qarabağ məsələsinin hərbi yolla həlli indiki mərhələdə real görünmür"**

***- Azərbaycana Rusiya təhlükəsini xüsusi vurğuladınız. Artıq hər kəsdə belə təsəvvür formalaşıb ki, Azərbaycan Qərblə strateji müttəfiqlik xəttindən uzaqlaşaraq çox sürətlə Rusiyaya yaxınlaşır. Doğrudanmı Azərbaycan xarici siyasətdə Qərb xəttindən tamamilə imtina edərək könüllü şəkildə Kremlin təsiri altına düşür?***

- Azərbaycan hakimiyyəti ölkəni nə Rusiyaya, nə də Qərbə doğru aparır. Hakimiyyət Azərbaycanı sürətlə uçuruma doğru aparır. Qarşıda uçurumdur. Biz bu təhlükəli prosesi dayandırmalıyıq və dayandıracağıq. Azərbaycan hakimiyyəti nə qədər anlaşılmaz, yanlış, nadan bir siyasət ortaya qoysa da Qərbdən tamamilə aralanmaq imkanına malik deyil. Çünki Azərbaycanın köklü maraqları - həm strateji baxımdan, həm siyasi baxımdan, həm də iqtisadi baxımdan Azərbaycanın Qərblə uzunmüddətli strateji əməkdaşlığını tələb edir. Ona görə də bu məsələdə əsas təhlükə müxtəlif qüvvələrin Azərbaycana münasibəti yox, hakimiyyətin xarici siyasətdə absurda yaxınlaşan yanlış xətt yürütməsindədir. Əlbəttə, bu yanlış siyasətin əsas səbəblərindən biri Rusiyanın Azərbaycana təzyiqi və Azərbaycan hakimiyyətinə təsiridir. Rusiyanın Azərbaycanın başına gətirdiyi ən böyük faciələrdən biri indiki rejimi formalaşdırması və onu uzun illərdir Azərbaycanın rəhbərliyində qoruyub saxlamasıdır. Biz ilk növbədə bu vəziyyəti dəyişməliyik.

**"Rusiyanın Azərbaycanın başına gətirdiyi ən böyük faciələrdən biri indiki rejimi formalaşdırması və onu uzun illərdir Azərbaycanın rəhbərliyində qoruyub saxlamasıdır"**

***- İsa bəy, son aylarda Azərbaycanın Qarabağı hərbi yolla alacağı ilə bağlı xəbərlər gündəmə gətirilir. Cəbhə xəttində tez-tez gərginlik xəbərləri alırıq, şəhidlər veririk. Siz indiki siyasi rəhbərliyin Azərbaycan torpaqlarının işğaldan azad edilməsi üçün savaş əmri verəcəyini gözləyirsinizmi?***

- Çətin sualdır. Çünki hər bir Azərbaycan vətəndaşı işğal altında olan torpaqlarımızın azad edilməsinin nə qədər ləngidiyinin fərqindədir. Hamımız torpaqlarımızın tezliklə işğaldan azad olunmasını istəyirik. Yenə də Azərbaycan hakimiyyətinin yanlış, konsepsiyasız, plansız, proqramsız siyasəti nəticəsində məsələ o qədər mürəkkəbləşib ki, onu asanlıqla həll etməyin mümkünlüyü haqqında düşünmək düzgün olmazdı. Qarabağ probleminin hərbi yolla həlli indiki mərhələdə real görünmür. Rusiyanın nəzarəti altında kiçik bir müharibə aparıb bir neçə məntəqəni işğaldan azad edib bunu qələbə kimi təqdim etmək, əvəzində ciddi güzəştlərə getmək Azərbaycan üçün fəlakət ssenarisidir. Haqqında söhbət gedən kiçik müharibə ssenarilərinin sonunda Rusiya Silahlı Qüvvələrinin sülhməramlı qüvvələr adı altında Azərbaycan torpaqlarının ayrılmaz parçası olan Dağlıq Qarabağa yerləşdirilməsi nəzərdə tutulur. Bu, Azərbaycanımızın minlərlə şəhid hesabına bərpa etdiyi müstəqilliyin, suverenliyin itirilməsinə bərabər olardı. Buna heç bir şəkildə yol verməmək olmaz. Azərbaycan hakimiyyətinin Qarabağ məsələsini başqa bir şəkildə Azərbaycanın xeyrinə həll edəcəyi də görünmür. Ona görə də bu məsələlərə birmənalı cavab verməyi düzgün saymıram. Mən öz tərəfimdən belə hesab edirəm ki, Qarabağ məsələsinin danışıqlar yolu ilə həlli imkanları hələ tükənməyib. Sadəcə olaraq bunun üçün Azərbaycanın çox aydın gerçəkçi bir planı olmalıdır, bu plan üzrə hərəkət edilməlidir. Bu planın içərisində həm ölkədə siyasi-iqtisadi azadlıqların gerçəkləşdirilməsi olmalıdır, həm Azərbaycanın öz geosiyasi seçimini etməsi nəzərdə tutulmalıdır, həm də beynəlxalq münasibətlər sahəsində çox aktiv diplomatik addımların atılması yer almalıdır.

**"Rusiyanın nəzarəti altında kiçik bir müharibə aparıb bir neçə məntəqəni işğaldan azad edib bunu qələbə kimi təqdim etmək, əvəzində ciddi güzəştlərə getmək Azərbaycan üçün fəlakət ssenarisidir"**

❑ Aygün MURADXANLI

YENİ MÜSAVAT
N 216 (6244) 1 oktyabr 2015


Qubad İbadoğlu


Fikrət Yusifov

# İqtisadçıların neft davası...

## Azərbaycan qazanır, ya itirir?




**Neftin ucuzlaşması və bunun nəticəsində ölkənin itirdikləri ilə bağlı ekspertlər arasında müzakirə açılıb. Ekspert Qubad İbadoğlunun fikirləri mübahisə yaradıb. İqtisadçı ekspert Qubad İbadoğlu qeyd edib ki, Azərbaycan ayda 550 milyon dollar itirir: "Bu ilin sentyabr ayına olan hesablamalar göstərir ki, son 1 ildə neftin dünya bazarında ucuzlaşması səbəbindən Azərbaycanın birbaşa itkiləri 6,6 milyard dollar olub. Qiymət ucuzlaşmasına görə daha çox itkilər xam neft ixracatında qeydə alınsa da, neft məhsullarının və təbii qazın xaricə satışından da gəlirlər azalıb. Nəticədə bu səbəbdən Azərbaycanın itkiləri orta hesabla ayda 550 milyon, gündə isə 18 milyon 333 min dollar təşkil edib".**

**Ekspert Fikrət Yusifov** isə ona ad çəkmədən sosial şəbəkədə cavab verib. O bildirib ki, alınmayan mənfəəti itki kimi qələmə vermək məntiqdən çox uzaq bir yanaşmadır: "Hər iş qurtarıb, indi də oturub yazırlar ki, neftin qiymətlərinin aşağı düşməsindən Azərbaycan bir gündə, bir ayda və bir ildə nə qədər vəsait itirib. Nədənsə yaddan çıxarıb bu, hesaba Azərbaycanın bir saatda nə qədər itkiyə məruz qaldığını yazmayıblar. Bunu etsəydilər daha ciddi "sensasiya" yaradardılar. Görəsən, bu "hesab müəllimləri" bir bareli 12-15 dollara başa gələn neftin dünya bazarlarında 100 dollardan yuxarı satıldığı illərdə Azərbaycanın bir gündə, bir ayda, bir ildə nə qədər əlavə vəsait qazandığını da eyni qəhrəmanlıqla hesablaya bilərlərmi? Neftin qiymətlərinin aşağı düşməsi hesabına alınmayan mənfəəti itki kimi qələmə vermək məntiqdən çox uzaq bir yanaşmadır..."

**Qeyd edək ki, əksər ekspertlər neftin ucuzlaşmasının ciddi itkilərə səbəb olduğundan narahatlığını bildirir. Ekspert Natiq Cəfərlinin sözlərinə görə, itki və qazanc həmişə ötən müddətə müvafiq dövrə görə hesablanır:** "Yenidən velosiped kəşf etməyə və yaxud da yeni əlifba yazmağa ehtiyac yoxdur. Dünyanın bütün ölkələrində hesabat dövrü ötən ilin müvafiq dövrünə görə hesablanır. Yəni keçən ilin müvafiq dövrünün xəbərləri əsas götürülür. Ona nisbətən bu ilin rəqəmlərinin üzərində həm iqtisadi artım göstəriciləri, həm ixracat göstəriciləri, gəlir və ziyan göstəriciləri hesablanır. Yəni yeni bir qanun kəşf etməyə ehtiyac yoxdur. Azərbaycanda da iqtisadçılar və mütəxəssislər hesablayarkən məhsulun keçən ilə nisbətən builki dəyişikliyini əsas götürürlər. Yəni Azərbaycanın neft ixracatından itkisini gəlirlərə nisbətən hesablayırlar. Ötən ilə görə itirilən vəsait dünyanın hər yerində bu cür hesablanır. Neftin qiymətlərinin aşağı düşməsi hesabına alınmayan mənfəəti itki kimi qələmə vermək olmaz deyən iqtisadçının məntiqinə görə, biz 2008-ci ildə neftin 148 dollara qədər qalxdığı dövrü götürə bilərikmi? Həmin vaxtı müqayisədə götürsək, indi Azərbaycanın itkiləri daha çox olacaq. Təbii ki, 2008-ci illə 2015-ci ili müqayisə etmək məntiqsizlik olardı. Və yaxud 2002-ci ildə neftin qiyməti 25 dollar civarında dəyişirdi, onda bunu əsas götürərək indi daha çox 50 dollardan satdığımız nefti, neftdən qazandığımızı uğur kimi qələmə verək?"

**Ekspertin sözlərinə görə, yeganə düzgün və metodoloji yanaşma bütün hesabatların keçən ilin müvafiq dövrünə, rəqəmlərinə görə bu ili müqayisə etməkdir:** "Orada itki, qazancın olub-olmaması haqqında müəyyən rəy yaranır. Azərbaycan dünyadan təcrid olunmuş ayrıca bir ölkə deyil. Rəqəmlər həmin metodoloji qaydalara istinad edərək hesablanmalıdır. Buna istinad edib hesablayarkən görürük ki, 2014-cü illə müqayisədə Azərbaycanın kəskin itkiləri var. Başqa nə cür hesablayaq? Başqa nə təklif var? Bütün dünya necə hesablayırsa, Azərbaycan da aşağı-yuxarı həmin metodologiya əsasında hesablama aparır".

❑ RÖYA

# Ölkənin bank sisteminə təhlükə - filiallar bağlanır...

## Samir Əliyev: "İlin sonuna kimi bazarı tərk edən banklar olacaq"

**Ölkə bankları ciddi təhlükə ilə qarşı-qarşıyadır. Artıq banklar filiallarını bağlayır. Ekspertlər bildirirlər ki, kommersiya banklarının bəzisinin fəaliyyətində problemlər yaranıb. Əsas problemlərdən biri kimi isə maliyyə çatışmazlığı göstərilir. İstehlak kreditlərinin həcminin getdikcə azalması, əhalinin əmanət yerləşdirməyə maraq göstərməməsi isə vəziyyəti daha da mürəkkəbləşdirir. Bu səbəbdən də bankların bəzisi xidmət şəbəkəsini mümkün qədər kiçiltmək və ixtisarlar aparmaq məcburiyyətindədir.**




Son olaraq "Bank of Baku" ASC-nin Bakıda yerləşən 3 filialı fəaliyyətini dayandırıb. Bank məsələ ilə bağlı açıqlama yayıb. Bunlar Nəsimi rayonu, Rəşid Behbudov küçəsi,17 ünvanında yerləşən "28 May" filialı, Nizami rayonu, Babək prospekti, 2269-cu məhəllə ünvanında yerləşən "Babək" filialı və Suraxanı rayonu, Yeni Günəşli qəsəbəsinin "D" massivi, Günəşli küçəsində yerləşən "Yeni günəşli" filialıdır.

Məsələ ilə bağlı bankdan verilən rəsmi açıqlamaya görə, bu qərar filial şəbəkəsinin optimallaşdırılması siyasətinə uyğun qəbul olunub.

"Bank of Baku" ASC-nin səhmdarların qəbul olunmuş 3 illik "yeni persperktivlər" planı çərçivəsində bank dayanıqlı gəlirlilik və effektivliyi təmin etmək məqsədilə filial şəbəkəsinin optimallaşdırılması prosesinə başlayıb. Optimizasiya prosesinə görə, müştəri axını az olan, bir-birinə yaxın olan, həcmi kiçik olan bir neçə filialın yaxınlıqda olan daha böyük filiallarla birləşdirilməsi qərarı verilib.

Məlumata əsasən, kiçik həcminə görə işçilərin sayı az olan və bu səbəbdən müştərilərə xidmət operativ aparılmadığına görə tez-tez müştərilərin narazılığına səbəb olan "28 May" filialı yaxınlıqda yerləşən S.Vurğun filialı ilə birləşdirilir.

Eyni zamanda avtokreditlərin verilməsinə fokuslanan "Babək" filialı bu kreditlərə azalan tələbatı nəzərə almaqla yaxınlıqda olan "Neftçilər" filialı ilə birləşdirilir.

Həmçinin pilot layihə olaraq yeni açılmış, nəqliyyat yolundan uzaq yerləşdiyinə görə müştəri axını az olan "Yeni Günəşli" filialı isə "Bakıxanov" filialı ilə birləşdiriləcək.

Məlumata əsasən, bu proses çərçivəsində həmin filialların müştərilərinə digər filiallarda xidmət olunacaq, həmin filialların əməkdaşları isə fəaliyyətini bankın digər filiallarında davam edəcəklər.




Hazırda təsdiq olunmuş 3 illik plana görə növbəti bir il ərzində daha bir filialın bu proses çərçivəsində birləşdirilməsi nəzərdə tutulur.

**"Qeyd edək ki, 3 illik plan çərçivəsində filial şəbəkəsinin optimallaşdırılması ilə yanaşı, biznes proseslərə yenidən baxılması və sadələşdirilməsi, alternativ və texnoloji satış kanallarının müştəri xidmətlərində daha geniş istifadəsi, risk menecmenti alətlərinin təkmilləşdirilməsi, yeni və innovativ qeyri-kredit məhsullarının yaradılması, kredit portfellərinin diversifikasiyası və real sektorun inkişafı üçün layihələr, məhsul əsaslı xidmətdən müştəri əsaslı xidmətə keçid və digər mövzular ətrafında müxtəlif layihələr işlənəcək. Əsas hədəf daha çevik, daha innovativ, daha texnoloji və daha sağlam bank olmaqdır"**, - deyə bankdan bildirilib.

Bir müddət əvvəl "Bank Respublika"nın Goranboy şöbəsi fəaliyyətini dayandırıb. Bildirilir ki, Goranboy filialı Gəncə filialına birləşdirilib. Həmçinin "Unibank"ın Bakıdakı filiallarından biri fəaliyyətini dayandırıb. Bank bunun təmir işləri ilə əlaqədar olduğunu bildirir. Söhbət paytaxtın Suraxanı rayonunda, Hövsan qəsəbəsi, İlqar Əhlimanov küçəsi, 5 ünvanında yerləşən filialdan gedir. Bankdan bildirirlər ki, təmir işləri nəticəsində filialın dizaynına dəyişiklik ediləcək. Hazırda həmin filialın müştərilərə müvəqqəti olaraq "Unibank"ın Həzi Aslanov filialında *(Ünvan: Bakı şəhəri, Xətai rayonu, Məhəmməd Hadi küçəsi, 144)* xidmət göstərilir. Təmir işlərinin nə qədər davam edəcəyi dəqiq məlum deyil.

Azərbaycanda banklarla yanaşı, bank olmayan kredit təşkilatları (BOKT) da bəzi filiallarını bağlamaq barədə düşünür. Bunlardan biri "FINCA Azerbaijan"dır. Bildirilir ki, bu ilin fevral ayında baş vermiş devalvasiyadan sonra müştərilərin sayında azalma var. Buna görə də filialların yenidən qiymətləndirilməsi aparılır. Bir-birinə yaxın və həcmcə kiçik olan ofislərdən bir neçəsi bağlana və gələcəkdə bu gün xidmət göstərilməyən digər rayonlarda yeni ofislər açıla bilər.




**Ekspert Samir Əliyev isə məsələ ilə bağlı musavat.com-a bildirib ki, əslində bankların filial şəbəkələrinin azaldılması gözlənilən idi:** "Neftin ucuzlaşması və ardınca devalvasiya bank sektorunu çətin vəziyyətə çalıb. Banklar hələ də özlərinə gələ bilmirlər. Zərər artıb, kapital azalıb, aktivlər pisləşib və sair.

Banklar devalvasiyadan sonra bir müddət ehtiyat vəsaitləri hesabına fəaliyyət göstərdilər. Amma kreditləşmənin məhdudlaşması onların gəlirlərini kəskin azaltdı. Üstəgəl, Mərkəzi Bankın kredit faizlərinə tavan tətbiq etməsi bankların işini daha da çətinləşdirdi. Ona görə də çıxış yolu xərclərin optimallaşdırılmasından keçirdi. Yəni banklar, o cümlədən bank olmayan kredit təşkilatları xərclərinin strukturuna yenidən baxmalı və maksimum dərəcədə ixtisarlar aparmalıdır. Bu optimallaşma isə filialların sayının azaldılmasından, işçilərin ixtisarından və ya əmək haqlarının azaldılmasından keçir".

**Ekspertin sözlərinə görə, ona görə də payız aylarından başlayaraq bank sektorunda təmizləmə əməliyyatının başlaması qaçılmaz idi:** "Artıq proqnozlar özünü doğruldur. Filialların birləşdirilərək azaldılması həyata keçirilir. Bir sıra banklarda ixtisarlar başlanıb və başlanmaq üzrədir. Həmçinin maaşların azaldılması prosesi də paralel gedir. Düşünürəm ixtisarlar ilin sonuna kimi davam edəcək. Sonrakı dövrdə dünyada və ölkədə baş verəcək proseslərdən asılı olaraq yeni situasiya yarana bilər.

Yəni neft uzun müddət bu həddə qalarsa və bir qədər də ucuzlaşarsa, ikinci kəskin devalvasiya olarsa, bank sektorunda ixtisarların güclənməsi qaçılmaz olacaq".

**S.Əliyev vurğulayıb ki, istənilən halda, ilin sonuna kimi bazarı tərk edəcək banklar olacaq:** "Növbəti devalvasiya isə onların sayını daha da artıra bilər".

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 216 (6244) 1 oktyabr 2015

**Sentyabrın 30-da Milli Məclisin payız sessiyasının ilk iclası keçirildi. Spiker Oqtay Əsədovun sədrliyi ilə keçirilən ilk plenar iclasın gündəliyinə 39 məsələ daxil edilmişdi. Gündəlikdəki məsələlərin əksəriyyəti isə qanunlara edilən əlavə və dəyişikliklərlə bağlı idi. Payız sessiyasının iş planının müzakirəsi zamanı çıxış edən deputat Musa Quliyev çıxışı zamanı həmkarlarını salamladıqdan və qarşıdakı seçkilərdə iddialılara uğurlar arzuladıqdan sonra ölkədəki lal-kar uşaqların problemlərindən danışdı.**




# Spikerdən deputata ilginc reaksiya

Qeyd etdi ki, uşaqların vaxtında əməliyyat edilməsi nəticəsində lal-karlığı aradan qaldırmaq mümkündür.

Onun sözlərinə görə, hər əməliyyatın 20 min manata başa gəldiyini nəzərə alsaq, təqribən 2,5 mln. manat vəsait tələb olunur. Deputat bununla bağlı qanunvericiliyə dəyişiklik edilməsini təklif etdi. Deputat müəllimlərə və həkimlərə ipoteka verilməsi məsələsindən də danışdı. Dedi ki, onların maaşı şərtlərlə uyğun gəlmədiyi üçün onların sosial ipoteka alması mümkünsüz olur. Odur ki, qanunvericilikdə müəllim və həkimlərin xüsusi kateqoriya kimi göstərilməsini zəruri saydı.

**Zahid Oruc cəbhədə baş verənlərlə bağlı yayılan informasiyalara diqqət çəkdi. "Mən təklif edirəm ki, KİV haqqında qanunvericiliyə dəyişiklik olsun" deyən Z.Oruc mətbuatda əksini tapan bəzi materiallardan düşmənin də istifadə etdiyini vurğuladı:** "Məsələn, bir neçə gün əvvəl Azərbaycan əsgəri düşmənə sarsıdıcı zərbə vurdu. Amma bu xəbərlər neçənci sırada yer aldı. Bəlkə də belə bir qayda qoyulmalıdır ki, Müdafiə Nazirliyinin xəbərləri, bəyanatları birinci yerdə olmalıdır. O vaxta qədər ki, Qarabağ məsələsi həllini tapacaq".

Z.Oruc hər iki valideynini itirmiş uşaqların pulsuz təhsil aldığını, lakin magistratura pilləsinin ikinci ilində həmin gənclərin güzəştlərdən məhrum olduğunu xatırlatdı və 23 yaşlı gənclərin də güzəştlər kateqoriyasına aid edilməsini təklif etdi.

"Biz tələbə qəbulu ilə bağlı xüsusi qanun qəbul etməliyik" deyən Z.Oruc bildirdi ki, artıq tələbə qəbuluna uzanan əllər kəsilib. Ancaq eyni zamanda Azərbaycan gənclərinin xaricdə təhsilə üz tutmasını nəzərə alıb, qanunvericiliyə dəyişikliyi zəruri saydı.

**Qənirə Paşayeva həmkarı M.Quliyevin təklifini müdafiə etdi:** "Onlarla övladımız doğulur, ancaq eşitmə və danışma qabiliyyəti olmadan... Zamanında biz onlarla bağlı əməliyyata dəstək olsaq, bu uşaqları xilas edə bilərik. Üstəlik, dövlət daha böyük vəsaitlər xərcləməz".

**Xanım deputat müəllim və həkimlərin xüsusi güzəştlərlə sosial ipoteka alması barədə təşəbbüsü də müdafiə etdi. Q.Paşayeva "Repreduktiv sağlamlıq haqqında" qanun layihəsinin də müzakirəyə çıxarılmasını təklif etdi:** "Bizə övladları olmayan onlarla ailə müraciət edir ki, bu qanun layihəsi müzakirəyə çıxarılsın və dövlətin yardımından istifadə etmək mümkün olsun".

Deputat ictimai yerlərdə siqaretin çəkilməsini qadağan edən qanun layihəsinin də hazır olduğunu dedi və onun müzakirəsinə çağırdı.

**Əli Məsimli** parlamentin payız sessiyasında "Təhsil haqqında" Qanunun tələblərindən irəli gələn bir sıra qanunların qəbulunu zəruri saydı. Deputat ipoteka kreditlərinə 200 milyon manat vəsaitin ayrılmasını vurğulayaraq, qeyd etdi ki, bununla dövlətin gənclərin problemlərinin həllinə diqqətini daha da artırdığını vurğulaya bilərik.

**Ə.Məsimli bununla yanaşı, sosial evlərlə bağlı addımların atılmasını da vacib saydı:** "Bu gün orta aylıq əmək haqqı 500 manat, təhsil haqları isə 1500-5000 manat arasındadır. Hər 3 tələbədən 2-si ödənişli təhsil alır. Odur ki, təhsil kreditləri ilə bağlı məsələyə baxılması zəruridir".

**Qüdrət Həsənquliyev cəbhədəki vəziyyətdən bəhs etdi və parlamentdə Qarabağ məsələsinə dair xüsusi iclasın keçirilməsini zəruri saydı. Bildirdi ki, Azərbaycan ordusu düşmənə zərbə endirəndən sonra ATƏT-in Minsk Qrupunun həmsədrlərinin öz narahatlığının ifadə etməsi onların mahiyyətini ortaya qoydu:** "Bu hadisə bir daha sübut etdi ki, 23 ildir, formalaşdırılan Minsk Qrupu status-kvonu qoruyub saxlamaq fikrindədir. Və işğalçı dövlətə qarşı hər hansı sanksiya tətbiq etmək, yaxud təzyiq göstərmək fikrində deyil. Bu hadisələrdən sonra Qarabağ məsələsi mütləq Milli Məclisin gündəliyinə salınmalıdır. Biz ölkənin müdafiə və xarici işlər nazirlərini, KİV nümayəndələrini, nüfuzlu ziyalıları, QHT-ləri də parlamentə dəvət etməli və beynəlxalq aləmə mesaj verməliyik ki, Azərbaycan bu vəziyyətlə barışmaq niyyətində deyil. Biz müzakirə etməliyik ki, Dağlıq Qarabağ məsələsi necə həllini tapmalıdır. Biz bu məsələni Milli Məclisin növbəti iclaslarından birinin gündəliyinə daxil etməliyik".

## Oqtay Əsədov: "Ay Zahid Oruc, sən Xarici İşlər Nazirliyini Kəşfiyyat Nazirliyinə çevirmək istəyirsən?"

**Xanhüseyn Kazımlı** isə Qərbi Azərbaycan və Qarabağ məsələsini Milli Məclisdə müzakirəyə çıxarmağa çağırdı. O bildirdi ki, Qarabağ məsələsini müzakirə ediriksə, Qərbi Azərbaycanı da unutmamalıyıq.

## Qüdrət Həsənquliyev parlamentdə müdafiə və xarici işlər nazirlərinin iştirakı ilə Qarabağ müzakirəsinin keçirilməsini təklif etdi

Milli Məclisdə 2015-ci il aprelin 28-də parlament tərəfindən qəbul edilmiş "Kənd təsərrüfatı informasiya-məsləhət xidməti haqqında" Qanuna "Azərbaycan Respublikası Prezidentinin etirazları barədə" qərar layihəsi də müzakirəyə çıxarıldı. Layihə barədə Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov məlumat verdi. Narazılığa səbəb olan məqamlar açıqlandı. Bildirdi ki, qeyd olunanlarla yanaşı qanunda "Normativ hüquqi aktlar haqqında" Qanunun 25.2-ci və 64.4-cü maddələrinin tələblərinə riayət olunmadan həddindən artıq ümumiləşdirilmiş və qeyri-müəyyən ifadələrə, eləcə də eyni məsələ ilə bağlı normativ göstərişlərin çoxluğuna yol verilib. Konstitusiyanın 110-cu maddəsinin I hissəsini və 149-cu maddəsinin III hissəsini rəhbər tutaraq "Kənd təsərrüfatı informasiya-məsləhət xidməti haqqında" Qanun imzalanmadan geri qaytarılıb. Qərar layihəsi səsə qoyularaq qəbul olundu.

**Parlamentarlar "Beynəlxalq Əmək Təşkilatının "Ödənişli məzuniyyətlər haqqında" *(1970-ci ildə yenidən işlənmiş)* Konvensiyasına Azərbaycan Respublikasının qoşulması barədə" Milli Məclisinin 1994-cü il 19 iyul tarixli 856 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında qanun layihəsini də təsdiqlədi. Parlamentin Sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli çıxış edərək diqqətə çatdırdı ki, sözügedən qanun layihəsinə iki dəyişiklik edilib:** "Bunlardan biri texniki məsələdir. İkinci məsələ isə Azərbaycan vətəndaşlarının məzuniyyəti üçün önəmlidir. Belə ki, Azərbaycan vətəndaşları üçün bu qanuna uyğun olaraq ən aşağı məzuniyyət 21 gün elan ediləcək. Bu da Azərbaycan vətəndaşlarına xidmət edən dəyişiklikdir".

Azərbaycanda nöqsanlara yol verən diplomatik əməkdaşlara qarşı cəzalar sərtləşdirilir. Bu məsələ Milli Məclisin bu gün keçirilən plenar iclasında müzakirəyə çıxarılan "Diplomatik xidmət haqqında" Qanuna edilən dəyişikliklərdə öz əksini tapıb. Parlamentə prezident tərəfindən təqdim olunan qanun layihəsində qeyd olunub ki, "Xidməti vəzifələrinin kobud şəkildə pozulmasına və ya diplomatik xidmətlə bir araya sığmayan hərəkətlərə görə" diplomatik əməkdaşların rütbələri aşağı salına və ya onlar öz rütbələrindən məhrum edilə bilər.

**Məsələ ilə bağlı çıxış edən deputat Zahid Oruc bildirdi ki, hər bir diplomat öz işində məsuliyyətli olmalı və sirr saxlamağı bacarmalıdır. Son vaxtlar Azərbaycanda bəzi diplomatların xarici dairələr tərəfindən ələ alındığını xatırladan Z.Oruc bunun yolverilməz olduğunu söylədi:** "Əgər sən bu sahədə sonadək çalışa bilməyəcəksənsə, o zaman əvvəlcədən diplomat peşəsindən vaz keç. Ümumiyyətlə, hər bir diplomat xüsusi xidmət orqanlarında olduğu kimi sirr saxlamağı, nə danışmağı bacarmalıdır. Diplomatlar öz işlərində məsuliyyətli olmalıdır. Necə ki, kəşfiyyat orqanlarında çalışanların sabiqi olmursa, mən hesab edirəm ki, bu, diplomatik sahədə çalışanlar üçün də eynidir".

**Spiker Oqtay Əsədov isə Z.Orucun dediklərinə maraqlı reaksiya verdi:** "Ay Zahid Oruc, sən Xarici İşlər Nazirliyini Kəşfiyyat Nazirliyinə çevirmək istəyirsən? Bu, təkcə Xarici İşlər Nazirliyində deyil. Hər yerdə nanəciblər var".

**"Diplomatik xidmət haqqında" Qanunda dəyişikliklər edilməsi məsələsi də müzakirələrdən sonra qəbul edildi. Dəyişikliklərin zərurəti barədə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Azər Kərimli məlumat verərkən bildirdi ki, bu gün yüzlərlə layiqli diplomatlarımız var:** "Bu dəyişiklik qanundakı boşluğun aradan qaldırılmasına xidmət edir. Dəyişikliyə əsasən əgər xidməti vəzifələrinin kobud şəkildə pozulmasına və ya diplomatik xidmətlə bir araya sığmayan hərəkətlərə görə diplomat vaxtından əvvəl geri çağırıla və ya o şəxsin vəzifəsi aşağı salına bilər". Müzakirələrin yekunu olaraq qanuna dəyişiklik qəbul edildi.

**"Qaz təchizatı haqqında" Qanuna dəyişikliklər edilməsi barədə qanun layihəsi müzakirə edilərkən deputat Qüdrət Həsənquliyev bildirdi ki, qarşıdan payız mövsümü gəlir və yenə də yeni tikilmiş hündürmərtəbəli binalar bu ili qazsız keçirəcək:** "Elektrik enerjisindən həddindən artıq istifadə artıq yükləmələr və digər problemlər yaradır. Dövlət Neft Şirkəti bildirir ki, bina təhvil verilirsə, qazla təmin edilə bilər. Dəfələrlə Milli Məclisdə bu məsələni qaldırmışıq. Dövlət məsuliyyəti vətəndaşın üzərinə qoyur ki, gedin, tikinti şirkətinin rəhbərinə təzyiq edin ki, binanı vaxtında təhvil versin, olmasa məhkəməyə verin. Məhkəmələr isə illərlə davam edir. Bir çox hallarda bilirik ki, binaların dələduz rəhbərləri bir mənzili bir neçə adama satır. İnsanlarımız da böyük əziyyətlə üz-üzə qalır. Bu məsələnin çox sadə həlli var. Dövlət ona görədir ki, əgər ictimai həyatımızda bu və ya digər sahəsində problem yaranırsa dərhal o qanunvericilik sahəsində tənzimlənir. Qanunvericiliyə kiçik düzəlişlə dəyişiklik edilsə ki, tikinti şirkəti yalnız notarial qaydada mənzil satışı həyata keçirə bilər, özü də bina dövlət istismarına qəbul edildikdən sonra. Bununla da bu problem həll edilə bilər. Amma biz marağındayıq ki, fundament qazıldıqdan dərhal sonra tikinti şirkətlərinə pul ödənilsin, onlar vətəndaşın pulu ilə binanı tiksin, bina başa çatandan sonra tikinti şirkətinin rəhbəri desin ki, mənim pulum yoxdur gedib binanı dövlət tərəfindən qəbul etdirim. Beləliklə, insanlar neçə illər belə əziyyətlərlə üz-üzə qalır. Yaxşı olar ki, biz tikinti şirkətlərinə mənzil satışını qadağan edək. Qoy onlar notarial qaydada bunu həyata keçirsin və istismara bina tam təhvil verildikdən sonra edilsin. Bu dəqiqə elə binalar var ki, bir neçə ildir insanlar orada yaşayır, ancaq orada qaz yoxdur. Hesab edirəm ki, bununla bağlı Milli Məclis olaraq qanunvericiliyə dəyişiklik edilsin". **Spiker isə Q.Həsənquliyevə cavabında dedi ki, bu məsələ dəfələrlə müzakirə edilib:** "Amma bütün məsələ qanunla tənzimlənə bilməz. Bununla bağlı Nazirlər Kabinetinin qərarları var və o qərarlara riayət edilməlidir ki, mənzil təhvil verilməmiş ora köçməsinlər. Qaz ağır məsələdir, qaz təhvil verilməmiş binaya köçmək olmaz. İnsanlar özləri müqavilə bağlayır və burada bu məsələlər öz əksini tapır. Bunun üçün qanun çıxartmaq lazım deyil". Daha sonra layihə səsə qoyularaq qəbul edildi.

Torpaqların zəbt olunması ilə bağlı cəzaların sərtləşdirilməsini və torpaqların təyinatına uyğun olmayan şəkildə istifadəsinə görə sanksiyaların sərtləşdirilməsini nəzərdə tutan qanun layihəsi haqqında isə deputat Rəfael Cəbrayılov məlumat verdi və qanuna dəyişiklik qəbul edildi.

**Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 216 (6244) 1 oktyabr 2015



# Xətaidə hasara alınan yaşıllığa Ekologiya Nazirliyindən sərt reaksiya

## ETSN: "Bəzi işbazlar bizim 2014-cü ildə verdiyimiz ekspertizanı saxtalaşdırmağa çalışırlar"



**Xətai rayonunda ağaclar kütləvi şəkildə məhv edilir. Artıq xeyli sayda ağac kəsilib, onlarla ağacın olduğu ərazilər isə hasara alınıb. Belə "ağac qəliamı" Xətai rayonu ərazisində ilk dəfə deyil ki, müşahidə olunur. Artıq dəfələrlə rayonun müxtəlif ərazilərində ağaclar gecə ilə kəsilərək, yerində ticarət obyektləri tikilib.**

Xatırlayırsınızsa, Bakıdakı ən səs-küylü "ağac qətliamı"nın qarşısı sakinlərin gecə saatlarında etiraza qalxması ilə alınmışdı. Xətai rayonundan deputat olan İqbal Ağazadə və sakinlər yaşadıqları ərazidə ağacların gecə saatlarında gizlicə kəsilməsinin qarşısını birlikdə keçirdikləri aksiya ilə almışdılar. Bundan sonra Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) başçısı Hacıbala Abutalıbov əraziyə baş çəkərək, ağacların kəsilməsinin qanunsuz olduğunu demişdi və ərazinin yaşıllaşdırılacağına söz vermişdi.

İndi isə fərqli bir ünvanda - Xətai rayonunda yerləşən Heydər Əliyev parkının ətrafında olan yaşıllıq ərazi hədəf alınıb.

Artıq rayonun Vunq-Tau küçəsində, yol kənarında olan yaşıllıq ərazilər hissə-hissə hasara alınıb. Bu küçənin bir tərəfi ancaq ticarət obyektləri ilə əhatə olunub. Üzbəüz ərazidə isə yüzlərlə küknar ağacı var. Görünür, ağacları hədəf alanlar burada da ticarət obyektləri tikmək istəyirlər. Artıq yaşıllığın Heydər Əliyev parkına yaxın olan ərazisində tikinti işləri başlayıb. Burada xeyli sayda ağac kəsilib.

Qeyd etdiyimiz ünvanda olarkən öyrəndik ki, ağacların kəsildiyi yerdə kafe və ya restoran kimi fəaliyyət göstərəcək yeni obyekt tikilir.

Yaşıllıqların hasara alındığı ərazidə olarkən maraqlı bir məlumat lövhəsi gördük. Lövhə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekspertiza İdarəsi tərəfindən asılıb.

İdarədən Bakı Şəhər İcra Hakimiyyətinin Yaşıllaşdırma Təsərrüfatı Birliyinin baş direktoru Vaqif Novruzova göndərilən məktubda ərazidə ağacların kəsilməsinə icazə verildiyi qeyd edilir.

Məktubda bildirilir ki, prezidentin sərəncamı ilə təsdiq edilmiş "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın icrası ilə əlaqədar qeyd edilən ünvanda yolun genişləndirilməsinə mane olan ağacların kəsilməsinə icazə verilir. İcazə məktubunda 24 ədəd iynəyarpaqlı, 5 ədəd qovaq və 5 ədəd yulğan kolunun kəsildiyi göstərilir. Şərt olaraq isə ərazidə yeni ağacların əkilməsi göstərilir.

Lakin ərazidə olarkən müşahidə etdik ki, kəsilən ağacların əksəriyyəti yolun genişləndirilməsinə heç bir əngəl törətmir. Həmin ərazilərdə kəsilən ağacların yerində parkın yaxınlığında tikilən yeni obyektə doğru maşın yolu çəkilir.

Xatırladaq ki, BŞİH bir neçə gün əvvəl Xətai rayonu ərazisində növbəti "ağac qətliamı"na reaksiya vermişdi. BŞİH ağacların qanunsuz olaraq kəsilməsi ilə bağlı polisə müraciət etmişdi.

Rayonun 34-cü polis bölməsinə edilən müraciətdə qeyd edilib ki, Babək prospekti 15-də yerləşən yaşıllıq zolağında qanunsuz olaraq, 6 şam ağacı kəsilib və yerində qazıntı işləri aparılıb.

Ümid edirik ki, bu dəfə də müvafiq qurumlar yaşıllıqların məhv edilməsinə laqeyd münasibət göstərməyəcəklər.

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən musavat.com-a bildirilib ki, doğrudan da bir müddət əvvəl həmin ərazidə yolun genişləndirilməsi üçün bir neçə ağacın kəsilməsinə icazə verilib. Nazirlikdən o da bildirilib ki, hazırkı durumla bağlı ETSN-in rəsmi icazəsi yoxdur. "Görünür, bəzi işbazlar bizim adımızdan sui-istifadə edib, köhnə tarixə verdiyimiz icazəni özlərinin maraqları üçün istifadə etməyə çalışırlar. Hazırda yazıda göstərilən ünvana komissiya yollamağa hazırlaşırıq. Məsələni yerində araşdırıb mətbuata bu haqda ətraflı məlumat verəcəyik" - deyə nazirlikdən bildirilib.

❑ **İlkin MURADOV**

EVRASCON

# "Evrascon" ASC-nin Abid Şərifova aidiyyəti yoxdur"

## Korporasiyanın sədr müavini Namiq Kərimli: "Maliyyə çətinliyimiz var, amma vəziyyət heç də mətbuatda yazıldığı kimi deyil"

**Avro-Asiya İnşaat Korporasiyası "Evrascon" ASC-də yaranmış durumla bağlı "Yeni Müsavat" vaxtaşırı yazır. Təşkilatın fəhlələrinin redaksiyanın elektron ünvanına yolladıqları məktublar əsasında hazırlanan məqalələri indiyədək bir neçə dəfə çap etmişik. Yazılanlara "Evrascon" ASC-dən reaksiya verilib. Şirkətin iqtisadi məsələlər üzrə sədr müavini Namiq Kərimli "Yeni Müsavat"a gələrək açıqlama verib. Sədr müavini yaranmış durumdan çıxış yollarından danışıb, baş nazirin müavini Abid Şərifovun korporasiyaya aidiyyəti haqda yazılanlara aydınlıq gətirib.**

**Deyib ki, "Evrascon" ASC Abid Şərifovun şirkəti deyil:** "Onun və qardaşının adı əsassız yerə hallanır. Şirkətin sədri Əfəndi İsmiyevdir. Onun Abid Şərifovla heç bir qohumluq əlaqəsi yoxdur. Dağıstanda anadan olub. Azsaylı rutul xalqının nümayəndəsidir. Abid müəllim, bildiyimiz kimi, Şəkidə anadan olub. Onun qardaşına gəlincə isə "Evroscon"da 4 min nəfər çalışır. Ola bilsin ki, onların arasında kimsə işləyir".

**Abid Şərifovun şirkətə aidiyyəti olmaya-olmaya orada baş verənlərlə bağlı açıqlama verməsinə gəlincə, N.Kərimli dedi ki, "Evroscon" 1997-ci ilə kimi "Azəryolnəqliyyat" Dövlət Şirkətinin 17 müəssisəsindən biri olub. 1997-ci ilə kimi Abid Şərifov həmin şirkətin prezidenti vəzifəsini tutub:** "O dövrdən Abid Şərifovun bizim şirkətin rəhbərliyi ilə yaxşı münasibətləri qalır. Həmin vaxtlarda bizim baş idarə "Azəryolnəqliyyat" Dövlət Şirkəti olub deyə təbii ki, rəhbərlər bir-birilərini tanıyırlar, aralarında gözəl münasibətlər var. Abid Şərifov bizim şirkətin də daxil olduğu Dövlət Şirkətinin prezidenti olub. Hazırda şirkətlə Abid Şərifovun heç bir hüquqi bağlığı yoxdur.

Bilirsiniz ki, fövqəladə hallarla bağlı yaradılan komissiyaların rəhbərliyi çox vaxt Abid Şərifova tapşırılır. "Evrascon" şirkətinə də çox vaxt böyük yol tikinti işləri tapşırılır deyə Abid Şərifovla təmaslar yaranır. Bu baxımdan onun şirkətdəki durumdan xəbəri ola bilər".

**N.Kərimli korporasiyanın üzləşdiyi maliyyə çətinliklərinin səbəbi haqda bunları deyib:** "Mətbuatda yazılanların əksinə olaraq bizdə 5 ay deyil, 3 aylıq əmək haqqının gecikməsi var. Bunu gizlətmirik. Səbəbini də izah edim. Tikintidə belədir ki, növbəti ayın 20-nə qədər görülən işləri sifarişçinin nümayəndəsi gəlib yoxlayır. "Forma-2" deyilən sənəd tərtib olunur. Bu, görülən işlər haqda sənəddir. Ola bilər ki, sifarişçi gəlib hansısa bir qüsurlar tapa bilər. Hər ay bu baxımdan yoxlama aparılır, qüsurlar varsa, aradan qaldırılması üçün fikirlər bildirilir və qüsur aradan qaldırılandan sonra "Forma2" tərtib olunur. Bu sənəd tərtib olunandan sonra ödəniş həyata keçirilir. Ödənişin həyata keçirilməsi hər ayın 25-i və sonrakı günlərə təsadüf edir. Pulun köçürülməsində hər dəfə gecikmələr olub. 1 il ərzində olan gecikmələr sonda 3 aylıq bir müddətin əmələ gəlməsinə və əmək haqqının da müvafiq olaraq gecikdirilməsinə gətirib çıxarıb. 5 ay əmək haqqının gecikdirilməsi məsələsi yoxdur. Biz hər ayın 25-də pulu ödəməli idik, gecikmələrə görə pulu qrafik üzrə deyil, 5 gün gecikmə ilə ödəmişik. Hər ay 5-10 gün gecikmə olub və nəticədə 3 aylıq gecikmə əmələ gəlib.

Amma ümumilikdə elə bir ay yoxdur ki, işçiyə əmək haqqı verilməsin. İşçilərə biz pulu nağd deyil, kart vasitəsilə veririk. Maksimum gecikmə 10 gün olub. Yəni 1 ay əvəzinə maaşı 40 günə vermişik".

**Görülən işlər haqda məlumat verən Namiq Kərimli bildirib ki, "Evroscon" Qazaxıstanda yol, körpü, dəmir yolu tikintisi ilə məşğul olur:** "Bu sahə üzrə ixtisaslaşmışıq. Hazırda orada gördüyümüz işlərdə 527 nəfər azərbaycanlı işləyir. Yerli işçilər də çalışırlar. Bir məsələni də deyim ki, hansı ölkədə bizim şirkət çalışır, oradakı bazalarımızda bizim bayrağımız, Azərbaycan bayrağı dalğalanır. Biz bayrağımızı xaricdə dalğalandırmağımızdan qürur duyuruq".

**"Evrascon" ASC-nin Qazaxıstana ezam olunmuş işçiləri redaksiyamıza müraciətlərində onlara Bakıda vəd olunan əmək haqlarının ödənmədiyini söyləyiblər. Sədr müavini bu məsələyə belə aydınlıq gətirib:** "Bizim işçilərlə bağlanan əmək müqaviləsində konkret məbləğ tarif dərəcəsinə uyğun olaraq göstərilir. Tarif sistemidir. Orada işçi 600 manat əmək haqqı alır. Onun maaşı 1200 manata gəlib çıxırsa, bu, onun yerinə yetirdiyi iş əmsalı ilə bağlıdır. Əgər biz həmin pulu sifarişçidən ala bilmiriksə, ən azı işçinin tarifini ödəyirik. Yəni 600 manatını alır. Yerinə yetirilən işlərə görə də smetalarda 15-18 faiz əmək haqqı nəzərdə tutulur. Əgər biz həmin tikinti sahəsində həcmi götürürüksə, məbləğ o sahəyə ayrılır. Sahəyə 100 min manat ayrılıbsa, tariflə hesablanır ki, ora nə qədər xərclənib. Məlum olur ki, 50 min xərclənib, yerdə qalan 50 mini işçilərin iş əmsalına görə sahə rəhbərləri onların arasında bölürlər. İş əmsalından asılı olaraq işçi 800 manat da, 1200 manat da ala bilər".

**Namiq Kərimlinin sözlərinə görə, xarici ölkəyə ezam olunan işçilərə 20 faiz əlavə vəsait ödənilir:** "İşçi xarici ölkədə qalmaq üçün yerlə, yeməklə təmin olunur. Hər ay ona əmək haqqından çıxmaq şərti ilə 200 dollar avans verilir. İşçi istirahət günü olduğu şəhərdə teatra, kinoya, restorana getmək istəsə və ya qəzet, kitab alıb oxumaq istəsə, ona verilən avansla bunu edə bilər. İş günləri isə işçilər tikinti meydançasının yaxınlığındakı xüsusi bazada olan evlərdə qalır, orada yeməklə təmin olunurlar. Tikinti meydançasında və bazada spirtli içkilər qəbul etmək qəti qadağandır. İstirahət günlərini isə işçilər özləri istədikləri qaydada keçirə bilərlər".

**Xarici ölkəyə ezam olunmuş işçilərin həmin dövlətin müvafiq qurumlarından işləmək izni alması ilə bağlı N.Kərimli bunları söyləyib:** "4 min nəfər işçimiz var və 1 nəfər də işçi yoxdur ki, onunla əmək müqaviləsi bağlanmasın. Əgər işçini Qazaxıstana, Moldovaya, Özbəkistana, Rusiyaya, Ukraynaya göndəririksə, bu, rəsmi qaydada olur. Hər bir dövlətdə xaricdən gələn işçilərlə bağlı kvota var. Qazaxıstanda da belədir. Biz hər bir ölkəyə işçilərimizi ezam edərkən həmin dövlətin müvafiq qurumlarına müraciət ünvanlayırıq. Problem ondadır ki, bu müraciətlərə 3-5 gün deyil, aylarla cavab verilmir. Cavab verəndə də yazırlar ki, məsələn, Qazaxıstanda kifayət qədər elektrik var və xaricdən gəlməsinə lüzum yoxdur. Amma həmin müddətdə bizim ora ezam etdiyimiz işçi bizim bazada qalır. İşçi bazadan kənara çıxanda problemlər yaranır. Miqrasiya Xidmətinin əməkdaşları saxlayıb sorğu-suala tutur. İşçini bazadan kənarda ev tutub saxlamaq isə şirkətə baha başa gəlir. Yəni qanunlarda boşluqlar var. Ona görə də belə vəziyyət yaranır. Xarici dövlətin müvafiq qurumları işçinin həmin dövlətin ərazisində qalıb işləməsi və ya işləməməsinin məqsədəmüvafiq olmadığı haqda operativ qaydada cavab vermirlər".

**N.Kərimli işçilərin yeməklə təmin olunması məsələsinə də toxunub:** "Bəzən problemlər olur. Amma işçiyə verilən yeməyin kəsilməsi məsələsi haqda deyilənlər doğru deyil".

**N.Kərimli şirkətin maliyyə durumunun nə vaxt düzələcəyi ilə bağlı suala belə cavab verib:** "Biz maliyyə durumunu bu gün həll edə bilərik. Buna görə 4 min işçinin böyük bir hissəsi ixtisar olunmalıdır. İşçilər isə deyir ki, bizi işdən çıxarsanız, hara gedəcəyik? Şirkətin özü də bu adamları itirmək istəmir. Çünki yol-körpü tikintisi üzrə mütəxəssislərin yetişdirilməsinə illər gedir. Şirkətə Azərbaycandan Qazaxıstana 1 işçinin göndərilməsi çox baha başa gəlir. Elə orada olan ucuz işçi qüvvəsindən istifadə edib podrata götürülən işləri həyata keçirmək mümkündür. Özbəkistanda o qədər ucuz işçi qüvvəsi var ki! O ölkələrdə xarici şirkətlər çox olub. Yerli işçilərdən istifadə olunub. Yəni yerli işçilərin də müəyyən qədər təcrübəsi var. Amma biz adamlarımızı, yaxşı mütəxəssislərimizi itirmək istəmirik. Şirkətə az gəlir gətirən və xaricdə olan işçiləri podrata götürməklə illərlə formalaşan komandamızın, işçi heyətimizin, maşın-mexanizmlərimizin dağılıb sıradan çıxmasına imkan vermirik. Sifarişçilər tərəfindən maliyyənin hesabımıza köçürülməsində gecikmə olmayana qədər heç bir problemimiz yox idi. Bu gün şirkətin podratında olan işləri 1500 nəfərlə həyata keçirə bilərik. Amma bu addım göstərdiyim səbəblərdən atılmır".

❑ **E.MƏMMƏDƏLİYEV**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



**BMT Baş Məclisinin 70-ci yubiley sessiyası göstərdi ki, beynəlxalq gündəlikdə Dağlıq Qarabağ məsələsi ön planda deyil. Daha doğrusu, dünyanın ən aktual, həlli qaçılmaz sayılan problemləri sırasında hələ ki yer almayıb. Belə görünür, Qarabağ mövzusunun Azərbaycan tərəfindən BMT gündəliyinə salınması və sessiya gedən günlərdə təmas xəttində vəziyyətin kəskinləşməsi də vəziyyəti dəyişməyəcək.**



# Sərkisyan BMT tribunasından da dünyaya yalanlar ifraz etdi

## Düşmən ölkə başçısı yenə beynəlxalq hüquqdan dəm vurdu - beynəlxalq hüquqa arxa çevirdiyi, Dağlıq Qarabağı Ermənistan ərazisi saydığı halda; Kornegi Mərkəzindən amerikalı analitik: "Status-kvo əbədi qala bilməz..."

ABŞ və Rusiya prezidentləri - Barak Obama və Vladimir Putinlə iki illik fasilədən sonra baş tutan iki saatlıq görüş da göstərdi ki, beynəlxalq ictimaiyyəti, o cümlədən Minsk Qrupu həmsədrləri kimi Amerika və Rusiyanı hazırda iki böhranlı məsələ narahat edir - Suriya (İŞİD) və Ukrayna.

Doğrudur, Nyu-Yorkda vasitəçilər Azərbaycan və Ermənistanın xarici işlər nazirləri - Elmar Məmmədyarov və Edvard Nalbəndyanla əvvəlcə ayrı-ayrılıqda, sonra isə birlikdə bir araya gəldilər. İki XİN başçısı arasında görüş də keçirildi və həmsədrlərin son bəyanatına inansaq, prezidentlər İlham Əliyev və Serj Sərkisyan arasında ilin sonunadək daha bir görüşün reallaşması üçün ilkin razılıq əldə edildi.

***

Ancaq əfsuslar olsun ki, erməni tərəfinin aqressiv mövqeyi və ritorikası indidən növbəti görüşü də mənasız edir. BMT Baş Məclisinin yubiley sessiyası başlar-başlamaz işğalçı Ermənistanın prezidenti sensasion sayıla biləcək, eyni zamanda tüstülənən Qarabağ ocağına yağ tökən avanturist bir açıqlama verməsi, Dağlıq Qarabağı qanunsuz şəkildə Ermənistanın tərkibi hissəsi elan eləməsi ayrı qənaətə yer saxlamır və avtomati olaraq, bölgədə müharibə risklərini artırır.

Bəs situasiya yeni müharibə səviyyəsinədək inkişaf edə bilərmi?

**"Növbəti görüş Sərkisyan hakimiyyətinin dayaqlarını sarsıdan qərarların qəbulu ilə nəticələnə bilər". Bu sözləri axar.az-a Sərkisyanın Dağlıq Qarabağla bağlı son bəyanatını şərh edərkən politoloq Qabil Hüseynli deyib.**

**Sabiq dövlət müşavirinə görə, bu bəyanatdan sonra Serj Sərkisyan Azərbaycan torpaqlarının geriyə qaytarılmasına məcbur edilə bilər:** "Sərkisyan yaxşı bilir ki, Rusiya ilə Azərbaycan arasında torpaqların geriyə qaytarılması istiqamətində danışıqlar gedir. Bu danışıqlar prosesini isə qənaətbəxş hesab etmək olar. Dünənədək səhra komandiri olmuş, əli azərbaycanlıların qanına batmış və torpaqlarımızın işğalında çox yaxından iştirak etmiş Sərkisyan indi həmin torpaqların geriyə qaytarılmasına məcbur edilə bilər. Bu isə onun hakimiyyəti üçün ciddi təhlükə deməkdir. Buna görə də o, indi təxribatlar yaratmağa və xalq qarşısında özünə bəraət qazandıra biləcək xallar yığmağa çalışır. Üstəlik, münaqişənin başa çatmadığı bir vaxtda öncədən Dağlıq Qarabağın statusu barədə çox şübhəli və təxribat xarakterli bəyanat verməsi Ermənistanın təcavüzkar bir dövlət olduğunu bir daha ortaya qoydu. İndiyə qədər dövlətlər Ermənistanın bu münaqişədə iştirakına dair ikili standartlardan danışır, yaxud da təcavüzü üstüörtülü formada ifadə edirdilər. Artıq Azərbaycanın beynəlxalq təşkilatlarda və danışıqlar prosesində Ermənistanın günahını sübuta yetirmək üçün daha bir tutarlı faktı var".

**Politoloq Sərkisyanın bəyanatını hakimiyyətin qorunması üçün atılmış çox uğursuz, bəlkə də axırıncı cəhd kimi qiymətləndirir:** "Aydın oldu ki, Ermənistan rəhbərliyi canlanmaqda olan danışıqlar prosesinin əleyhinədir, xarici işlər nazirini isə Nyu-Yorka, sadəcə, görüntü xətrinə göndərib. Görünən odur ki, heç prezidentlərin görüşünə də hazır deyil. Bilir ki, bu görüş onun üçün hakimiyyətinin dayaqlarını sarsıdan qərarların qəbulu ilə nəticələnə bilər. Ona görə Sərkisyan indidən əsməyə başlayıb və bu yolda manevrlərdən çəkinməyəcək".

***

Ermənistanın Qarabağ məsələsində nə dərəcədə konstruktivlikdən uzaq olduğunu işğalçı ölkənin başçısı Serj Sərkisyanın BMT Baş Məclisinin sessiyası çərçivəsində həmsədrlərlə görüşü və çıxışı bir daha nümayiş etdirdi, İrəvanla sülhə gəlməyin faktiki, mümkünsüzlüyünü isbatladı. Bütün parametrlərə, beynəlxalq hüquq normalarına görə Ermənistan işğalçı olduğu halda Sərkisyan Azərbaycanı aqressiyada suçladı, hətta beynəlxalq hüquqdan, ikili standartlardan dəm vurdu. Onu da bildirdi ki, guya Ermənistan "Azərbaycanın təxribatlarına, sadəcə olaraq, cavab verməK zorunda qalır".

Kəsəsi, öz adlarını növbəti dəfə bizə qoydu. Təbii ki, bu zaman bir kəlmə də qonşusunun 20 faizlik torpaqlarını on illərdir niyə işğal altında saxlamalarından, BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağa dair 4 məlum qətnaməsini nə üçün hələ də yerinə yetirməmələrindən, bununla bağlı beynəlxalq tələbləri niyə qulaqardı eləmələrindən söz açmadı.



Pol Stonski

Bu isə o anlama gəlir ki, cəzasızlıqdan, beynəlxalq hüquq sistemindəki boşluqlardan məharətlə istifadə edən təcavüzkar öz əməllərini haqlı sayır, qeyri-konstruktiv mövqeyində qalır və işğalçılıq siyasətini davam etdirmək əzmindədir.

**Lakin Amerikadakı Kornegi Mərkəzinin analitiki Pol Stonskiyə görə, status-kvo əbədi də sürə bilməz. Sitat:** "Hazırda Qarabağ zonasında gərginliyin artmasının bir səbəbi də beynəlxalq birliyin diqqətinin daha çox Suriya və Ukrayna məsələsinə yönəlməsidir. Rusiya çox tez-tez Qarabağ məsələsində faydasızdır, o, hər iki tərəfə silah verir. Mən konfliktin gələcəyi ilə bağlı çox narahatam. Problem ondadır ki, status-kvo əbədi şəkildə saxlana bilməz. Konfliktdən Ermənistanın da, Azərbaycanın da iqtisadiyyatı zərər çəkir. Münaqişə zonasında pis iqtisadi durum isə zorakılığa aparır..."

## "Qarabağ məsələsində Qərb Rusiyaya təzyiq etməlidir"

**Metyu Brayza:** "Hazırkı vəziyyətdə münaqişənin həlli o qədər də çox vaxt və səy tələb etməyəcək, çünki..."



Metyu Brayza

**"Hazırda Dağlıq Qarabağ münaqişəsinin həllində yaxın gələcəkdə dönüşə səbəb ola biləcək amil görmürəm. Əvvəllər də bildirmişəm ki, vasitəçilik prosesində dönüş əldə etmək üçün Azərbaycan və Ermənistan prezidentləri bir-birilərinə daha çox etimad göstərməlidirlər və prosesi irəli aparmaq üçün tələb olunan çətin qərarlar verməyi bacarmalıdırlar".**

Bunu dailykarabakh-a açıqlamasında ABŞ dövlət katibinin Cənubi Qafqaz üzrə sabiq köməkçisi, ATƏT-in Minsk Qrupunun sabiq amerikalı həmsədri Metyu Brayza bildirib. Amerikalı diplomat deyib ki, münaqişənin həlli üçün tərəflər ATƏT-in Minsk Qrupu çərçivəsində ABŞ-dan və Fransadan güclü siyasi dəstək hiss etməlidirlər və bu dəstək ən yüksək hökumət səviyyəsində göstərilməlidir.

Brayza Qərb liderlərinin bu istiqamətdə fəallıq göstərməyə hazır olduğunu görmür: "Ancaq onlar bunu etməlidirlər. Qərb liderləri Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsini Rusiya ilə gündəliklərinə qoymağa təkid etməlidirlər".

**Sabiq amerikalı həmsədr hesab edir ki, Qərb liderlərinin başı Suriya, İŞİD, miqrantlar, qaçqınlar, Ukrayna böhranı və digər məsələlərə qarışmasına baxmayaraq, Dağlıq Qarabağ münaqişəsinin həllini prioritet hesab etməlidirlər:** "Bu böhranlı məsələlər kritik həddə çatdığı bir vaxtda, Dağlıq Qarabağ münaqişəsinin Cənubi Qafqazda yeni böhrana yol açmasına imkan verilməməlidir, çünki sonra bu məsələ daha təhlükəli vəziyyətə çatmaqla daha çox vaxt və səy göstərilməsini tələb edəcək. Bu baxımdan Qərb liderləri əvvəlcədən vasitəçilik prosesində daha çox cəhd göstərməlidirlər".

Metyu Brayza hesab edir ki, hazırkı vəziyyətdə Dağlıq Qarabağ münaqişəsinin həlli o qədər də çox vaxt və səy tələb etməyəcək, çünki münaqişənin həlli üçün "Madrid sənədi" formasında əsas prinsiplər artıq hazırdır və bu prinsiplər Azərbaycanı, Ermənistanı münaqişənin həlli üçün çərçivə razılaşmasına xeyli yaxınlaşdırır.

Keçmiş amerikalı həmsədrə görə, münaqişə tərəfləri özləri irəliyə doğru konstruktiv və gözlənilməz addımlar atmaqla diqqəti cəlb etməyənə qədər Qərb liderləri çətin ki, yuxarıda qeyd olunan amillərə diqqət yetirsinlər. "Lakin Qərb liderlərinin siyasi dəstəyi olmadan münaqişə tərəfləri üçün bu cür addımı atmaq olduqca çətindir. Beləliklə, biz "toyuq, yoxsa yumurta" dalanında qalırıq".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 216 (6244) 1 oktyabr 2015

# Hacıqabuldakı bir qətlin müəmmalı istintaqı

## Öldürülən Habil Ədilovun işi ilə bağlı yalnız 81 yaşlı qonşusu tutulub; cinayətdə əli olan digər şəxslər istintaqdan niyə yayındırılır?

**Ötən ay Hacıqabulda baş verən bir qətl hadisəsi haqda məlumat verilib. Məlumatda qeyd olunurdu ki, rayonun Kolanı kəndinin sakini, 1934-cü il təvəllüdlü Şirəliyev Sərhəd Səhət oğlu qohumu, 1971-ci il təvəllüdlü Ədilov Habil Nəcəf oğlunu ov tüfəngindən açdığı atəşlə öldürüb.**



Şirəliyev həmkəndlisinə 3 güllə vurub. Xəbərdə o da qeyd olunurdu ki, qohumları hadisənin S. Şirəliyevin evində usta işləyən Habil Ədilovla pul üstündə yaranmış mübahisə zəminində baş verdiyini ehtimal ediblər. Eyni zamanda S.Şirəliyevin həbs edildiyi və Hacıqabul Rayon Prokurorluğunda cinayət işi açıldığı bildirilirdi.

Ancaq məlum olub ki, qətl hadisəsi heç də pul mübahisəsi üzərində baş verməyib və qonşular arasında münaqişənin uzun tarixçəsi olub, hadisədə əli olan digər şəxslər isə qəsdən istintaqdan yayındırılır. Belə ki, mərhumun yaxınlarının verdiyi məlumata görə, Şirəliyev yaxınlarının dəstəyi ilə bu cinayəti qabaqcadan planlaşdırıb, silah və sursat əldə edib. Cinayət baş verən gündən əvvəl 3 gün ərzində oğlu Cavanşirin evində yaşayıb, 8 avqust 2015-ci ildə, səhər saat 5.00-da isə silah-sursatını götürərək öz evinə gəlib və Habil Ədilov mal-qarasını örüşə ötürmək üçün tövlənin qapısından çıxarkən saat 07.25 radələrində onu qətlə yetirib.

Mərhum Habil Ədilovun yaxınlarının bildirdiyinə görə, H.Ədilov qətlə yetirilməmişdən iki ay əvvəl təxminən gecə saat 23-24 radələrində tövlədəki mal-qarasına baş çəkərkən S.Şirəliyevin həyətindən aralarındakı daş hasarın üzərindən tanımadığı şəxsin bağlarına atlandığını görüb, arxasınca qaçmasına baxmayaraq onu yaxalaya və kim olduğunu müəyyən edə bilməyib. H.Ədilov bir neçə gün sonra həmin hadisə barədə S.Şirəliyevə bildirib, S.Şirəliyev isə söhbətin gizli saxlanmasını ondan xahiş edib, özünün zəruri tədbir görəcəyini söyləyib.

Bundan sonra S.Şirəliyev bir neçə gün gecə vaxtı həmin şəxsi müəyyən etmək üçün güdüb, həqiqətən də gecə vaxtı həyətindəki hamamın sol tərəfində kimliyini dəqiqləşdirmədiyi şəxslərin görüşdüyünü bilib və söhbət edərək gülən zaman səslərini eşidib. Həmin vaxtdan sonra S.Şirəliyev məsələ ilə bağlı gəlini Fəridə Şirəliyevadan maraqlanıb, lakin sonuncu qızının gizlin olaraq həmyaşıdları ilə görüşdüyünü bilsə də, bunu qayınatasına bildirməməyə çalışıb. Bundan sonra Sərhəd Şirəliyev gəlini Fəridə Şirəliyeva ilə mübahisə edib, onu təhdid edərək öldürəcəyi ilə hədələyib.

Bu barədə Fəridə Şirəliyeva atası Əlişah Novruzova məlumat verib, sonuncu isə bu ilin mayında Sərhəd Şirəliyevə məxsus qanunsuz saxladığı ov tüfəngini başqa bəhanə ilə alaraq evinə aparıb. Bundan sonra Sərhəd Şirəliyev keçmişdən H.Ədilova qarşı kinini yada salmaqla, eyni zamanda ailəsi daxilində baş verən həmin hadisəni mərhumun adına bağlayaraq, həmçinin H.Ədilovun bildiyi məlum sirri ört-basdır etmək üçün onu öldürmək qərarına gəlib və bu barədə bir neçə dəfə oğlanları-Cavanşir və Cahangir Şirəliyevlərlə birlikdə müzakirə aparıb. Hadisədən 20 gün əvvəl isə böyük qardaşı Şirəliyev Məhbudun həyat yoldaşının ölümünün 40-cı gün mərasimində yaxınları ilə məsləhətləşib.

Mərhumun yaxınları bildirir ki, istintaq materiallarında qeyd olunur ki, qətldən dərhal sonra Sərhəd Şirəliyev Bakıda yaşayan qardaşına zəng edərək "öldürdüm" deyib, daha sonra isə Səbinə adlı nəvəsinə zəng edərək "babanla fəxr edə bilərsən" deyib. Bundan başqa, qətldən əvvəl Sərhəd Şirəliyev oğlanları - Cavanşir və Cahangir Şirəliyevlərlə birlikdə olub, kiçik oğlu Cahangir Şirəliyev isə hadisədən bir neçə gün əvvəl atasına məxsus, lakin qayınatasında olan ov tüfəngini gətirərək atasına verib, hətta ona 20 ədəd patron alıb. Maraqlıdır ki, qətldən üç gün əvvəl Cahangir Rusiyanın Yekaterinburq şəhərinə gedib.

O da məlum olub ki, ailələr arasında ədavət hələ çox illər əvvəl olub. Sərhəd Şirəliyev kənddə sakinlərlə problemi olan adam kimi tanınıb. 2002-ci ildə H.Ədilovun hasar çəkmək istəməsi Məhbud və Sərhəd Şirəliyev qardaşları ilə münaqişəyə səbəb olub. Yalnız H.Ədilovun polisə müraciətindən sonra qarşıdurma dayandırılıb.

Sonradan münasibətlər yaxşılaşsa da, ötən il Habil Ədilovun Sərhəd Şirəliyevin həyətinə gecə gizli şəkildə gələn şəxs barədə qonşusuna məlumat verməsi münasibətləri yenidən gərginləşdirib. S.Şirəliyev nəvəsinin gizli görüşməsi hadisəsinə görə Habil Ədilova qəzəbli olur. Qonşusunun ailəsində ki bu hadisəni bilməsindən qəzəblənən baba köhnə düşmənçiliyi yenidən xatırlayaraq qonşusunu qətlə yetirir.

Ancaq bu hadisənin ən pis tərəfi odur ki, S.Şirəliyevin Nərimanov Rayon Polis İdarəsində istintaq idarəsinin rəisi vəzifəsində çalışan qohumu qətl hadisəsində əli olan digər şəxsləri gizlətməyə çalışır. Bununla da əslində uzun müddət planlanan və soyuqqanlılıqla həyata keçirilən qətl hadisəsinin əsl günahkarlarının cəzadan yayınmasına səbəb olur. Həm Sərhəd Şirəliyevin Bakıda yaşayan qardaşı, həm də qətl hadisəsi barədə məlumatlı olub, cinayətin planlanmasında iştirak edən oğlanları istintaqdan yayındırılır. Mərhum Habil Ədilovun yaxınları istintaqın yalnız qətli törədən Sərhəd Şirəliyevin saxlanılıb istintaqa cəlb olunması, digər iştirakçıların isə yayındırılmasından narahatdır.

❑ **KƏNAN**



# Prokuror Bakıda həyat yoldaşını öldürən şəxsə 18 il yarım iş istədi

**Sentyabrın 30-da Bakı Ağır Cinayətlər Məhkəməsində həyat yoldaşı, 1968-ci il təvəllüdlü Fatma Şəfiyevanı qətlə yetirməkdə təqsirləndirilən 1962-ci il təvəllüdlü Namiq Həzi oğlu Məmmədovun cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

"Report"un məlumatına görə, hakim Mayıl Bayramovun sədrliyi ilə keçirilən prosesdə şahid Pərviz Zeynalov ifadə verib.

O, dindirilən zaman hadisənin necə baş verməsi haqda danışıb: "Axşam idi. 135 saylı sərnişin avtobusu ilə işdən evə gəlirdim. Avtobusun arxa oturacağında əyləşmişdim. Birdən avtobusun qabaq tərəfindən səs gəldi. Bir nəfər əlində bıçaqla içərindən çölə çıxdı. Yaxınlaşanda bir xanımın qan içində yaralı olduğunu gördüm. Mən təcili yardım çağırdım. Avtobusun sürücüsü isə sürüb getdi. Daha sonra hadisə yerinə polislər gəldi".

Prosesdə dövlət ittihamçısı təqsirləndirilən şəxsin 18 il 6 müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Məhkəmənin növbəti iclası oktyabrın 5-nə təyin edilib.

Qeyd edək ki, hadisə bu ilin aprel ayının 8-də gecə saatlarında baş verib. Xırdalan-Bakı xətti üzrə hərəkət edən 135 saylı sərnişin avtobusunda N.Məmmədov aralarında yaranan münaqişə zəminində həyat yoldaşı F.Şəfiyevanı bıçaqlayaraq qətlə yetirib. F.Şəfiyeva ağır bıçaq xəsarətləri ilə xəstəxanaya aparılarkən yolda ölüb.

N.Məmmədov Yasamal Rayon Polis İdarəsinə gələrək törətdiyi cinayət əməlini etiraf edib.

O, Cinayət Məcəlləsinin 120.2.4-cü (qəsdən adam öldürmə, xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə) maddəsi ilə ittiham olunur.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** ***(enurez)***
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Kazımov Elşən Teymur oğluna aid 27 dekabr 2006-cı ildə Yasamal rayonu Bünyadov küçəsi 1 saylı bina blok b 58 saylı mənzil üçün müqavilə sənədi itdiyi üçün etibarsız sayılır.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks halqa qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Elan**

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**
**Əlaqə telefonu: (050) 343-59-72**

**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (15000 AZN) təcili satılır.**
**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-betondur.**
**Tel: (050) 614-40-24**

YENİ MÜSAVAT
N 216 (6244) 1 oktyabr 2015

**Türkiyədə noyabrın 1-nə təyin edilən növbədənkənar parlament seçkiləri səbəbi ilə qış vaxtına keçid təxirə salınıb. Belə ki, Türkiyənin Enerji və Təbii Sərvətlər Nazirliyi seçkilərlə bağlı təhlükəsizliyin təmin olunması məqsədilə qış vaxtına keçid tarixinin oktyabrın 25-dən noyabrın 8-nə dəyişdirilməsi barədə qərar qəbul edib.**

# Türkiyə Azərbaycandan cəmi 1 saat geri qalacaq

## Adil Qeybulla: "Saat dəyişikliyinin iqtisadi səmərəsi olmadığından bundan imtina etmək məqsədəuyğundur..."

Bu isə o deməkdir ki, iki həftəyə yaxın Azərbaycanla Türkiyə arasındakı saat fərqi 2 saat yox, 1 saat olacaq. Qeyd edək ki, Azərbaycanda qış vaxtına keçid həmişə olduğu kimi, oktyabrın son bazar günündə həyata keçiriləcək - yəni oktyabrın 25-də.

Qış-yay vaxtına keçid Nazirlər Kabinetinin 17 mart 1997-ci il tarixli, 21 saylı qərarına görə həyata keçirilir. İqtisadçılar bu keçidin iqtisadiyyat üçün əhəmiyyətli olduğunu bildirirlər. Belə ki, qış vaxtına keçidin tətbiq olunduğu 110 ölkənin hər birində, o cümlədən Azərbaycanda elektrik enerjisinin illik istifadəsinə 2 faizədək qənaət olunur. Bu qənaət eyni zamanda ekologiyaya da müsbət təsir göstərir. Çünki elektrik enerjisinin istifadəsini azaltdıqca, ölkələr atmosferə atılan tullantıların miqdarını da azaltmış olur.

Həkimlər isə ildə iki dəfə saat dəyişiminin insan səhhəti üçün zərərli olduğunu düşünür. Xatırladaq ki, son bir neçə ildə əksər ölkələr vaxt dəyişimindən imtina edib.

Keçid dövrü - yəni yay və qış vaxtına keçilməsi insan səhhətinə mənfi təsir göstərir. Statistikaya əsasən, saat əqrəblərinin çəkilməsi aşağıdakı hallara səbəb olur: infarktların sayı 1,5 dəfə artır; intiharların sayı 0,66 faiz artır; təcili yardıma müraciətlərin sayı artır. Bundan əlavə, insanların əmək qabiliyyətində də azalma müşahidə edilir.

Dünyanın müxtəlif ölkələrində aparılan elmi araşdırmalar və həkim rəyləri də saat əqrəblərinin irəli-geri çəkilməsinin insanların səhhəti ilə bağlı müəyyən problemlər yaratdığını sübut edir. Mütəxəssislərin fikrincə, vaxtın dəyişdirilməsi hər 5 insandan birinə mənfi təsir göstərir. Alimlər qeyd edirlər ki, insan orqanizminin öz bioloji saatı var. Saatların çəkilməsi insanların davranışında da özünü göstərir. İnsanlar öz "daxili saatlarına" uyğunlaşdıqlarından saatların çəkilməsi onların psixologiyasına mənfi təsir edir, yuxusuzluq yaradır, anaların davranışlarına təsir edir.

Adaptasiya prosesi insanların sinir sisteminə də mənfi təsir edir. Keçid dövrünü ən pis uşaqlar, əlillər və meteohəssas insanlar, ürək çatışmazlığı olan şəxslər keçirdir. Bu qrup şəxslərin özlərinə gəlməsi üçün ən azı bir həftə vaxt tələb olunur.

Mütəxəssislərə görə, saat çəkiləndən sonra insan orqanizminin ona uyğunlaşması 2 həftəyə yaxın vaxt alır. Bu müddətdə həm evdə, həm də işdə fiziki və mənəvi yükü azaltmağa çalışmaq lazımdır. Əgər imkan varsa, ağır olan işləri təxirə salın. Orqanizmə daha çox yatmağa imkan verin. Əvvəlki vaxtla yatmağa, yeni vaxtla isə yuxudan durmağa çalışın. Yuxu vaxtını ən azı 1 saat artırın. Nəhayət, ən önəmli amillərdən biri olan qidaya diqqət edilməlidir. Daha çox vitamin, xüsusilə C vitamini qəbul etməyə çalışın.



Adil Qeybulla

**Tibb elmləri doktoru, professor Adil Qeybulla saat dəyişikliyinə 1-2 ay əvvəldən hazırlaşmaq lazım olduğunu bildirdi:** "Saatların irəli-geri çəkilməsini iqtisadi faktorlarla əlaqələndirirdilər. Amma bunun elə bir önəmi yoxdur. Çünki əksər ölkələr artıq qış və yay vaxtına keçməkdən imtina edib. Ona görə də bu, uzun müddət iş rejiminə uyğunlaşmış insanların ritmini pozur və yeni bir situasiya yaranır. İnsan bir saat öncə yuxudan durmalı, işə getməlidir. Yəni insanın bütün sistemi pozulmuş olur. Ona görə də saatların irəli-geri çəkilmə məsələsi ölçüb-biçilməlidir. Qış və yay saatına keçmək üçün insanlar hazırlaşmalıdır. 1-2 ay əvvəldən başlayaraq onlar yatma və oyanma vaxtlarını, iş rejimlərini hər gün 10-15 dəqiqə dəyişməlidirlər. Məsələn, əgər saatlar irəli çəkilirsə, 15 dəqiqə tez işini bitirməklə buna öyrəşmək olar. Saat çəkimi daha çox uşaqlarda və yaşlı adamlarda problemlər yaradır. Hesab edirəm ki, saat dəyişikliyinin iqtisadi səmərəsi olmadığından bundan imtina etmək məqsədəuyğundur".

❑ Günel MANAFLI



# QMİ Ciddə hava limanında baş verənlərə aydınlıq gətirdi

## İdarənin beynəlxalq şöbəsindən bildirirlər ki, zəvvarları daşımalı olan ərəb hava yolu şirkəti öhdəliklərinə əməl etmir

**Ötən gün azərbaycanlı zəvvarların Ciddə hava limanında qalması barədə yazı vermişdik. Xəbərdə qeyd olunurdu ki, zəvvarlar reyslərin ləngiməsi və hotelləri vaxtından əvvəl tərk etdikləri üçün hazırda Ciddə hava limanında qalıblar.**

Bildirilirdi ki, Bakıya yola düşməli olan zəvvarlar üçün hotelə pul verməmək üçün təşkilatçılar onları tez-tələsik hotellərdən çıxarıb hava limanına aparır. Bu gün səhər Bakıya gəlməli olan zəvvarları QMİ rəsmiləri bir gün əvvəldən hoteldən çıxarıblar. Ancaq səhər saat 5-də Bakıya uçmalı olan təyyarə yenə də təşkilati işlərin yarıtmazlığı səbəbindən ləngiyib və reys bu gün axşam 7-yə təyin olunub.

Zəvvarlar yazır ki, hotellər çox keyfiyyətsiz olub, yemək, qidalanma çoxları üçün ciddi problemə çevrilib. Təşkilatçılar isə bütün bunları və zəvvarların etirazlarını gördükdə qaçıb yoxa çıxıblar. Əsas təşkilatçı rəhbər Şeyxülislamın qaynı Əjdər adlı adam olsa da, artıq o da zəvvarların narazılığını gördükdən sonra yoxa çıxıb, hətta zənglərə də cavab vermir.

Həcc ziyarətinin təşkilatçısı olan Qafqaz Müsəlmanları İdarəsinin beynəlxalq şöbəsinin adını çəkilməsini istəməyən əməkdaşı ötən gün redaksiyamızla əlaqə saxlayaraq bəzi məlumatlara aydınlıq gətirib. İdarənin əməkdaşı deyir ki, zəvvarların Məkkədə hotellərdən əlavə pul verməmək üçün çıxarılması məlumatı həqiqəti əks etdirmir. Belə ki, QMİ-nin Məkkə hotellərini bir sezon üçün kirayə götürdüyünü deyən əməkdaş hotellərin hələ bir müddət QMİ-nin istifadəsində olacağını söyləyir. Sitat: "Hotelləri pula görə tərk etmək haqda məlumat həqiqəti əks etdirmir. Çünki QMİ Məkkədəki hotelləri sezon boyunca icarəyə götürüb və hələ uzun müddət o hotellər bizim ixtiyarımızdadır. Yalnız Mədinədə hotellər günlük müqavilə ilə icarəyə götürülür. Məkkədə isə elə bir hotel problemimiz yoxdur".

**QMİ rəsmisi hava limanındakı gözləmə probleminin Səudiyyə Ərəbistanının müvafiq qurumlarının işi ilə bağlı olduğunu deyir:** "Mən artıq bununla bağlı AZAL-a da müraciət etmişəm. Səudiyyə Ərəbistanı bizimlə şərt kəsib ki, zəvvarların daşınmasının heç olmasa bir tərəfini, yəni ya gediş, ya da dönüşü biz həyata keçirməliyik. Ona görə də zəvvarları Bakıdan Mədinəyə AZAL təyyarələri ilə aparmışıq, qayıdanda isə "Fly nass" şirkəti bunu etməli idi. Ancaq onlar adam çoxluğundan bu işi vaxtında görə bilmirlər. Bildiyiniz kimi, hazırda əhali say çoxluğu var, bütün ölkələrin zəvvarları geri qayıdır, ona görə də hava limanları çox yüklənib. Amma biz bununla bağlı AZAL-a da müraciət etmişik ki, bu şirkəti öhdəliklərini yerinə yetirmədiyi üçün cəzalandırsın".

❑ KƏNAN

# "Sədərək" çökür

## Sahibkarlar rəhbərliyə etiraz olaraq mağazaları qapadıblar

**"Sədərək" Ticarət Mərkəzində çalışan bir qrup sahibkar sentyabrın 29-da icarə haqqına etiraz olaraq mağazaları açmayıb.**

Bu barədə məlumatı musavat.com-a ticarət mərkəzində çalışan sahibkarlar veriblər. İcarə haqqını ödəyə bilməyən sahibkarlar bazar rəhbərliyindən də güzəşt görmədikləri üçün mağazaları açmayıblar.

Son zamanlar "Sədərək" və "Binə" ticarət mərkəzlərində sahibkarların vəziyyətinin həddən artıq çətinləşməsi haqda bir neçə dəfə məlumat vermişik. Manatın devalvasiyası, Rusiyadakı iqtisadi durum, son olaraq isə Çin yuanının öz dəyərini itirməsi sahibkarları çıxılmaz vəziyyətə salıb.

Alıcılıq qabiliyyətinin isə dəfələrlə aşağı düşməsi əksər sahibkarların bazarları tərk etməsinə səbəb olub. Artıq hər iki ticarət mərkəzində yüzlərlə mağaza boşalıb.






Hazırda mağazalarda çalışanların əksəriyyəti mağaza sahiblərinin özləridir. İcarəyə götürülən mağazaların çoxu boşaldılıb.

**Bazarda icarə əsasında işləyənlərin verdiyi məlumata görə, mağaza sahibləri onlara güzəşt etsələr də, bazar rəhbərliyi heç bir güzəşt etmir:** "Bazara müştəri gəlmir. Günlərlə heç icarə haqqını da çıxara bilmirik. Hamı görür ki, bazara gələn yoxdur. Amma bazar rəhbərliyi bunu nəzərə almır. İcarə haqqında heç bir güzəşt edilmir".

Bazarda çalışanlar deyirlər ki, icarə haqqını verə bilməyənlər məcbur qalıb, mağazaları bağlayıblar. Dünən rəhbərliyin göndərdiyi şəxslər bildiriblər ki, problemi həll etməyə çalışacaqlar. Bir neçə gün ərzində rəhbərliklə sahibkarlar arasında görüş keçiriləcəyi vurğulanıb.

Sahibkarlar rəhbərliklə görüşdən sonra problemin həll edilməyəcəyi təqdirdə, mağazaların qalan hissəsinin də boşalacağını bildiriblər.

❑ İlkin MURADOV

YENİ MÜSAVAT

Son səhifə

N 216 (6244) 1 oktyabr 2015

# Marsda inşa ediləcək ev

2030-cu ildə Marsa gedən astronavtların qalacaqları evləri 3D printerlər vasitəsilə hazırlamağı planlaşdıran NASA yarışmanın qalibini açıqlayıb. Habitat Vallenge adlı yarışın iştirakçıları ən sağlam, dayanıqlı, yeni və bir çox funksiyası olan evlər hazırlayıblar. 160 ev arasında birinci yerə SEARCH/ Clouds Architecture firmasının hazırladığı ev çıxıb. "Buz Evi" adlı proje çərçivəsində hazırlan ev -63 dərəcə temperaturda Marsda yaşayanları soyuqdan qoruyacaq. Yarışın qalibi 25 min dollar qazanıb. Yarışın ikincisi 15 min, üçüncüsü isə 10 min dolların sahibi olub. NASA-ya təqdim edilən evləri hazırlaya biləcək olan kosmik şirkətə yüksək miqdarda pul veriləcək. Bunun üçün Mars planetində evə lazım olacaq materiallar seçiləcək. Evləri hazırlaya biləcək şirkətə 1,1 milyon dollar mükafat da veriləcək.





## Tük qədər yüngül, poladdan bərk

Çinli alimlər tük qədər yüngül olmasına baxmayaraq, poladdan belə bərk olan super maddə hazırlayıblar. Çin Elmlər Akademiyasının alimləri köpüyə bənzəyən maddənin süni almaz hazırlanması zamanı təsadüfən ortaya çıxdığını deyiblər. Araşdırmaçılar yeni maddənin əyilib-bükülmədən öz ağırlığından 40 min dəfə ağır əşyaları daşıya bilir. Grafen adlı maddədən əmələ gələn köpüyün 1 kvadrat santimetri 1 tondan daha ağır zərbəyə davam gətirə bilir. Bu miqdar dünyanın ən dərin çökəkliyi olan Mariyan çökəkliyinin təzyiqi ilə eynidir. Normal ölçüsündən 5 dəfə kiçilə bilən yeni maddə yenidən əvvəlki ölçüsünə qayıda bilir. İstiyə qarşı da dözümlü olan maddə raket hücumlarının qarşısını almaq üçün tankların üzərinə də yerləşdirilə bilər. Alimlər son dərəcə incə olan grafendən bir dəqiqədə enerji yığa bilən batareyalar, kağız qədər incə telefonlar, güllələkeçirməz paltarlar hazırlamağı düşünürlər.

# Kərəvüzün faydaları

1. Qanı təmizləyir;
2. Sinirləri sakitləşdirir;
3. Bədəni gücləndirir;
4. Revmatizm, artrit kimi xəstəliklərin müalicəsində böyük əhəmiyyətə malikdir;
5. Böyrəklərin fəaliyyətini gücləndirir;
6. Üzdəki problemləri tənzimləyir, cildə xüsusi gözəllik bəxş edir;
7. Qaraciyərin şişkinliyini aradan qaldırır;
8. Böyrəklərdə olan daşın, qumun tökülməsinə səbəb olur;
9. İnsanı tez bir zamanda arıqladır;
10. Bədənin günlük C vitamininə olan tələbatını ödəyir;
11. Stressi aradan qaldırır;
12. Yuxusuzluq hallarını bərpa edir;
13. Baş ağrılarının keçməsinə səbəb olur;
14. Mədəni gücləndirir;
15. Yaddaş itkisinin qarşısını alır;
16. Yüksək təzyiqin normada saxlanılmasını balanslaşdırır.





## Qulağından hörümçək çıxdı

Lin Meng adlı qadın xüsusilə gecələr ciddi qulaq ağrısından əziyyət çəkirmiş. Hətta qəribə səslər eşitdiyini belə deyirmiş. O, dərmanların təsirini görmədiyindən qulağındakı səsləri ruhlarla əlaqələndirməyə başlayıb. Çünki qəbiristanlıqdan yığdığı çiyələkləri yedikdən sonra bu səsləri eşitməyə başladığını deyib. Mengin sözlərinə görə, sevgilisi ona giləmeyvələri yeməməsi haqqında xəbərdarlıq etsə də, onu dinləməyib. Lakin Li Meng həkimə getdikdən sonra qəribə həqiqətlə üzləşib. Həkimlər ona qulağının dərinliyində yaşayan bir hörümçək olduğunu deyiblər. Məhz bu səbəbdən də səslər eşidir, həm də ağrılardan əziyyət çəkirmiş. Həkimlərin uzun müddət çalışmalarından sonra Mengin qulağındakı hörümçək çıxarılıb və o əvvəlki həyatına qayıdıb.




QOÇ - Bu gün istənilən məsələdə risk etmək sizə zərər verə bilər. Odur ki, hansısa addımı atmazdan qabaq yüz ölçüb bir biçin. Müştərək fəaliyyətə başlamaq üçün saat 16-19 arasından yararlanın.

BUĞA - İxtiyarınızda olan bu təqvimi sakit tərzdə başa vurmağa çalışın. Özünüzü gərginliyə sürükləməyin. Nəzərə alın ki, gün ərzində mənfi enerjili Ay bürcünüzdə qərar tutacaq.

ƏKİZLƏR - Gərgin məqamlarla dolu olan bu təqvimi səbrlə başa vurmağa çalışın. Bütün vacib işləri təxirə salın. Axşam saatlarında isə yalnız sağlamlığınızla məşğul olmalısınız.

XƏRÇƏNG - Nə qədər sadə görünsəniz, ulduzların yanında hörmətiniz də bir o qədər çox olar. Sizə ehtiyac duyanlara kömək göstərin. Saat 16-dan sonra riskli işlərə aludə olmayın.

ŞİR - Ən başlıcası özünüzü mübahisədən qorumaqdır. Bunu bacarsanız, narahatçılığınız olmayacaq. İşgüzar sövdələşmələrdə iştirak etmək, problemləri birgə həll etmək üçün uğurlu məqamdır.

QIZ - Havalar nə qədər dəyişkən olsa da, fəaliyyətinizə ara verməyin. Çünki bütün astroloji qaynaqlar bu təqvimdə uğurlu karyeraya yetişmək şansınızdan xəbər verir. Təşəbbüskarlığı əldən verməyin.

TƏRƏZİ - İşlə bağlı yeniliklər yolunuzu gözləyir. Bu istiqamətdə sizə dəstək verənlər də tapılacaq. Günün ikinci yarısında birgə fəaliyyət planları haqqında bir daha götür-qoy etməyə dəyər.

ƏQRƏB - Bütün vacib işlərinizi saat 16-ya qədər yekunlaşdırın. Əgər bu proses sonrakı müddətə qədər uzansa, münaqişəli situasiyalara cəlb oluna bilərsiniz. Qazanmaq ehtimalınız böyükdür.

OXATAN - Çoxları üçün təlatümlərlə dolu olan bu təqvim sizin üçün daha çox maddi cəhətdən uğurlu keçməlidir. Gözləmədiyiniz istiqamətlərdən yeni iş təklifləri də ala bilərsiniz.

OĞLAQ - Planetlərin bürcünüzdəki neqativ düzümü səhhətlə bağlı müəyyən problemlərə yol aça bilər. Odur ki, istirahətə daha böyük yer ayırın. Bu gün riskli pul sövdələşmələrindən uzaq olun.

SUTÖKƏN - Ailə-sevgi münasibətlərində vəziyyət qənaətbəxş olsa da, həmkarlarınızla aranızda soyuqluq yarana bilər. Bu amili nəzərə alb verdiyiniz hər sözə əməl etməyə çalışın. Kimisə aldatmayın.

BALIQLAR - Əsas diqqəti fəaliyyətə yönəldin. Bəzi üzdəniraq dostlarınızla sonrakı münasibətləri konkretləşdirin. Xəyanəti bağışlamadığınız kimi, özünüz də etməyin. Uzaq yola çıxmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Paltar yuyub ütüləyən qarderob



Koreyanın texnologiya şirkəti olan "LG" ötən il hazırladığı ağıllı qarderobun təkmilləşmiş modelini yenidən təqdim edib. "LG Styler" adlı qarderob paltaryuyan maşın və ütü dərdini ortadan qaldırır. Paltar yumağa və ütüyə ehtiyac duymadan paltarları səliqəli şəkildə hazırlayan yeni texnologiya vasitəsi paltarlarda olan siqaret, spirtli içki, tər kimi pis qoxuları da təmizləyir. Qarderob "sürətli təmizləmə" xüsusiyyəti ilə paltarları yuyur və çox qısa müddətdə şalvarları ütüləyə bilir. "LG Stler"in satış qiyməti 2 min dollardır.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.